AZƏRBAYCAN RESPUBLİKASININ
RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ
DÖVLƏT MÜLKİ AVİASİYA AGENTLİYİ

ƏMR

№ 327-102/2/3-2-28/2023

Bakı şəhəri "22" may 2023-ci il

"Uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarətin həyata keçirilməsi Qaydası" adlı sənədə əlavə və dəyişikliklərin edilməsi barədə

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin (DMAA) 2022-ci il 14 aprel tarixli 27/3 nömrəli Əmri ilə təsdiq edilmiş "Uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarətin həyata keçirilməsi Qaydası" adlı sənədin 1-ci nəşrinə uçuşların təhlükəsizliyinin təmin edilməsinə həyata keçirilən dövlət nəzarətinin təkmilləşdirilməsi üçün 1 nömrəli əlavə və dəyişiklik işlənib hazırlanmışdır.

Sözügedən sənədin daha operativ şəkildə tətbiqini təmin etmək məqsədilə, "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında Əsasnamə"nin 5.6.6-cı yarımbəndini rəhbər tutaraq,

əmr edirəm:

1. "Uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarətin həyata keçirilməsi Qaydası" adlı sənədin 1-ci nəşrinə 1 nömrəli əlavə və dəyişikliklər 2023-cü ilin 1 iyun tarixindən qüvvəyə minsin.
2. Sözügedən sənədin tələblərinin şamil edildiyi aidiyyəti mülki aviasiya subyektləri əlavə və dəyişikliklərin 2023-cü ilin 1 iyun tarixindən tam tətbiqini təmin etsinlər.
3. Sənədin DMAA-nın və onun tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi"nin aidiyyəti mütəxəssisləri tərəfindən öyrənilməsi və icrası təşkil edilsin.
4. Sənədin yenilənmiş versiyası DMAA-nın rəsmi internet saytında yerləşdirilsin.
5. Əmr bütün şəxsi heyətə çatdırılsın.
6. Əmrin icrasına nəzarət direktorun müavini Hacıağa Hacıyevə həvalə edilsin.

Direktor **Arif Məmmədov**

Dövlət Mülki Aviasiya Agentliyinin
direktorunun
3-27-102-/7/3-2-28/2023 №-li 22 may 2023-cü il tarixli
Əmri ilə
TƏSDİQ OLUNUB

UÇUŞLARIN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNƏ NƏZARƏTİN HƏYATA KEÇİRİLMƏSİ QAYDASI

Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Agentliyi

Sənəd № AAR-GM-007

Nəşr № 01

Qüvvəyə minmə tarixi: 15 aprel 2022-ci il

Dəyişiklik № 01, 1 iyun 2023-cü il

Bakı şəhəri

https://www.caa.gov.az

0 SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDİLMƏ

0.1 Mündəricat

0 SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDİLMƏ 1
0.1 Mündəricat 1
0.2 Səhifələrin Siyahısı 2
0.3 Sənədin Yayılma Siyahısı 3
0.4 Düzəliş və Dəyişikliklərin Qeydiyyatı 4
1 Ümumi müddəalar 5
2 Əsas anlayışlar 5
3 Qaydanın tətbiq dairəsi 7
4 Uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarətin həyata keçirilməsinin təşkili 7
5 Uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarətin həyata keçirilməsinin əsas istiqamətləri 8
6 Mülki aviasiya personalı və onun hazırlığı ilə bağlı fəaliyyətə nəzarətin həyata keçirilməsi 9
7 Aeronaviqasiya üzrə nəzarətin həyata keçirilməsi 19
8 Mülki hava gəmilərinin uçuş əməliyyatları üzrə nəzarətin həyata keçirilməsi 27
9 Digər dövlətdə qeydiyyatda olan istismarçı tərəfindən istismar olunan mülki hava gəmilərinin uçuşa yararlılığı, istismara yararlılığı, uçuş heyəti və uçuş sənədlərinin uyğunluğu üzrə nəzarətin həyata keçirilməsi 33
10 Mülki hava gəmilərinin, onların mühərriklərinin, pərlərinin, hissələrinin və quraşdırılmamış avadanlığın uçuşa yararlığı və ətraf mühitin mühafizəsi üzrə nəzarətin həyata keçirilməsi 34
11 Hava gəmilərinin uçuşa yararlılığının saxlanılması və uçuşa yararlılığın saxlanılmasını təmin edən təşkilatların, hava gəmilərinə texniki xidmət göstərən təşkilatların fəaliyyəti üzrə yoxlamaların həyata keçirilməsi 38
12 Aerodromların və helikopter meydançalarının layihələndirilməsi və fəaliyyəti üzrə nəzarətin həyata keçirilməsi 43
13 Təhlükəli yüklərin mülki hava gəmiləri ilə daşınması üzrə nəzarətin həyata keçirilməsi 50
14 Uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminə nəzarətin həyata keçirilməsi 53
Əlavə 1 - İslahedici Tədbirlər Planının nümunəsi 56
Əlavə 1 - İslahedici Tədbirlər Planının nümunəsi 56

0.2 Səhifələrin Siyahısı

Səhifə	Qüvvəyə minmə tarixi	Reviziya №
1	01.İYUN.2023	01
2	01.İYUN.2023	01
3	15.APR.2022	00
4	01.İYUN.2023	01
5	01.İYUN.2023	01
6	01.İYUN.2023	01
7	15.APR.2022	00
8	01.İYUN.2023	01
9	15.APR.2022	00
10	15.APR.2022	00
11	15.APR.2022	00
12	15.APR.2022	00
13	15.APR.2022	00
14	15.APR.2022	00
15	15.APR.2022	00
16	15.APR.2022	00
17	15.APR.2022	00
18	15.APR.2022	00
19	15.APR.2022	00
20	15.APR.2022	00
21	15.APR.2022	00
22	01.İYUN.2023	01
23	01.İYUN.2023	01
24	01.İYUN.2023	01
25	01.İYUN.2023	01
26	01.İYUN.2023	01
27	15.APR.2022	00
28	15.APR.2022	00
29	15.APR.2022	00
30	15.APR.2022	00
31	15.APR.2022	00
32	15.APR.2022	00
33	15.APR.2022	00
34	15.APR.2022	00
35	15.APR.2022	00
36	15.APR.2022	00
37	15.APR.2022	00
38	15.APR.2022	00
39	15.APR.2022	00
40	15.APR.2022	00
41	15.APR.2022	00
42	15.APR.2022	00
43	15.APR.2022	00
44	15.APR.2022	00
45	15.APR.2022	00
46	15.APR.2022	00
47	15.APR.2022	00
48	15.APR.2022	00
49	15.APR.2022	00
50	15.APR.2022	00
51	15.APR.2022	00
52	15.APR.2022	00
53	15.APR.2022	00
54	15.APR.2022	00
55	15.APR.2022	00
56	01.İYUN.2023	01
57	01.İYUN.2023	01
58	01.İYUN.2023	01

0.3 Sənədin Yayılma Siyahısı

Nüsxə №	Nüsxənin tipi	Şöbə	Yerləşdirilib:
Master	**(S)**	Keyfiyyətə nəzərət və normayaratma İdarəsi	DMAA-nın kitabxanası/ Intranet
1	**(S)**	Keyfiyyətə nəzərət və normayaratma İdarəsi	Q-Pulse
2	**(S)**	Keyfiyyətə nəzərət və normayaratma İdarəsi	DMAA-nın rəsmi internet saytı

(S) Soft Copy - (Eelektron nüsxəsi)

(H) Hard Copy – (Çap olunmuş nüsxəsi)

Qeyd: *Çap olunmuş və ya bu siyahıda göstərilməmiş elektron və çap olunmuş sənədin nüsxəsi "nəzarətsiz" hesab olunur.*

0.4 Düzəliş və Dəyişikliklərin Qeydiyyatı

Nəşr/Dəyişiklik №:	Nəşr/Dəyişikliyin tarixi:	Qüvvəyə minib:	Səbəb
Nəşr № 01	15.APR.2022	Dir.Əmri № 27/3 14.04.2022	
Dəyiş.№ 01	01.İYUN.2023	Dir.Əmri № 3-27-102/7/3-2-28/2023 22.05.2023	

Nəşr: Cari nüsxəyə qədər bütün əvvəlki düzəlişləri birləşdirən sənədin nəşri. Sənədin yeni nəşri göy rəngdə göstərilən düzəlişləri əks etdirmir. Sənədin cari nüsxəsi hər səhifənin aşağı kolontitulunda göstərilir.

Düzəliş: Mətndə göy rəngdə yazılan və ya sənədin sağ tərəfində şaquli xətt ilə müşahidə olunan sənədin müəyyən hissəsinə edilmi şdəyişiklik. Əsas dəyişilkilər (nömrə və tarix) haqqında məlumat Rəhbərlik sənədin actual məlumatlar siyahısında, müvafiq səhifənin başlığında və mətnin özündə göstərilmişdir.

1 ÜMUMİ MÜDDƏALAR

1.1 Bu Qayda "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 944-IIQ nömrəli Qanununa, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı"na və "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası"na uyğun olaraq hazırlanmışdır və mülki aviasiya sahəsində uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarətin həyata keçirilməsinin əsaslarını və prosedurlarını müəyyən edir.

1.2 Bu Qayda mülki aviasiya sahəsində uçuşların təhlükəsizliyinin daha yüksək səviyyəsinin əldə olunması üçün beynəlxalq standartların və tövsiyə olunan təcrübənin tətbiqinə yönəldilmiş təşkilati tədbirlərin məcmusundan ibarətdir.

1.3 Bu Qaydanın əsas məqsədi Azərbaycan Respublikasında mülki aviasiya sahəsində uçuşların təhlükəsizliyinin təmin edilməsində iştirak edən səlahiyyətli şəxslərin, o cümlədən müfəttişlərin həyata keçirdikləri yoxlamaların, apardıqları monitorinqlərin və auditlərin dövrünü, təşkilini, planlaşdırılmasını, əsas istiqamətlərini müəyyən etməklə, uçuşların təhlükəsizliyinin daha yüksək səviyyəsinə nail olmaqdır.

2 ƏSAS ANLAYIŞLAR

2.1 Bu Qaydanın məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1 **Aviasiya personalı** - ali, texniki və xüsusi hazırlıq keçmiş və ixtisas qeydləri əks olunmuş şəhadətnamələri, vəsiqələri (sertifikatları) olan, aviasiya sahəsində müəyyən işlərin yerinə yetirilməsinə buraxılan mütəxəssislər;

2.1.1.-1 Agentlik – Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi (və/ və ya onun) tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxs

2.1.2 **Audit** - yoxlama meyarları və tələblərin hansı dərəcədə təmin olunduğunun obyektiv qiymətləndirilməsi və sübut əldə edilməsi üçün sistemli, müstəqil sənədləşdirilmiş proses;

2.1.3 **Xidmət təminatçısı** - uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin iştirakçısı olan mülki aviasiya subyekti;

2.1.4 **Müfəttiş** - mülki aviasiyada nəzarət funksiyalarının həyata keçirilməsi üçün səlahiyyət verilmiş və uçuşların təhlükəsizliyinin təmin edilməsi sahəsində ixtisaslaşmış şəxs;

2.1.5 **Müfəttiş yoxlaması** - Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra – Agentlik) tərəfindən verilən şəhadətnamə, sertifikat, tanınma və ya icazənin tələblərinə uyğunluğun təsdiq edilməsi üçün səlahiyyətli şəxs tərəfindən xüsusi fəaliyyətin, məmulat və xidmətlərin mülki aviasiya sahəsində müvafiq normativ hüquqi aktların səmərəli həyata keçirilməsinə yönəlmiş, həmçinin uçuşların təhlükəsizliyinə təhdid yarada biləcək nöqsan və pozuntuların vaxtında aşkar edilərək aradan qaldırılması məqsədilə həyata keçirilən fəaliyyət;

2.1.6 **Qiymətləndirmə** - geniş təcrübə və peşəkar mühakimə əsasında fəaliyyətin və vəziyyətin yoxlanılması nəticəsində rəyvermə prosesi;

2.1.7 **Öhdəlik bəyanatı** - şəhadətnamə, sertifikat və mülki aviasiya fəaliyyəti ilə məşğul olmaq üçün hər hansı formada icazə almış fiziki və hüquqi şəxslər tərəfindən müvafiq icazə sənədinə və qanunvericiliyə uyğun fəaliyyət göstəriləcəyinə dair Agentliyə

təqdim edilən yazılı bildiriş;

2.1.8 **Perron müfəttiş yoxlaması** - Azərbaycan Respublikasının ərazisində uçuş yerinə yetirən mülki hava gəmilərinin istismarının, uçuş heyətinin və uçuş sənədlərinin qanunvericiliyə və uçuşların təhlükəsizliyi üzrə standartlara uyğunluğunun hava limanlarında yoxlanılması;

2.1.9 **Uçuşların təhlükəsizliyi** - təhlükə mənbələrinin aşkarlanması və risklərə nəzarət yolu ilə uçuşların təhlükəsiz həyata keçirilməsi, o cümlədən insan həyatına və sağlamlığına, yaxud əmlaka ziyan vurulma riskinin azaldılması, məqbul hesab edilən səviyyədə saxlanılması üçün görülən tədbirlərin məcmusu;

2.1.10 **Uçuşların təhlükəsizliyinin təmin edilməsində nöqsanlar** - uçuşların təhlükəsizliyi sahəsində beynəlxalq müqavilələrə və standartlara, o cümlədən milli qanunvericiliyə və digər normativ akt və təlimatlara uyğunsuzluq (qüsurlar, pozuntuların hər-hansı digər uyğunsuzluqları);

2.1.11 **Uçuşların təhlükəsizliyinə dair məlumat bazası** - uçuşların təhlükəsizliyinin idarə edilməsi sahəsində daxil olan, təhlil edilmiş və ya sistemləşdirilmiş informasiyanın məcmusu;

2.1.12 **Uçuşların təhlükəsizliyi üçün risk** - təhlükə başvermə ehtimalı, yaxud onun fəsadlarının və ya nəticələrinin uçuşların təhlükəsizliyinə təsirinin ciddiliyi;

2.1.13 **Uyğunluğun müvafiq təminat vasitələri** - Agentlik tərəfindən qanunvericiliyə və uçuşların təhlükəsizliyi sahəsində beynəlxalq standartlara uyğunluğun təmin edilməsi üçün müəyyən olunan tədbirlər;

2.1.14 **Uyğunluğun alternativ təminat vasitələri** - Agentliklə razılaşdırılmaqla müəyyən olunan uyğunluğun müvafiq təminat vasitələrinə xidmət təminatçıları tərəfindən təklif edilən alternativ tədbirlər;

2.1.15 **Uyğunluğun müəyyən edilməsi** - mülki aviasiya sahəsində beynəlxalq standartların və tövsiyə olunan təcrübənin səmərəli tətbiqi və milli qanunvericilik, o cümlədən cari təcrübə əsasında uyğunluğun müəyyən edilməsi prosesi.

2.1.16 **Uçuşların təhlükəsizliyinin təmin edilməsində nöqsanlar** - uçuşların təhlükəsizliyi sahəsində beynəlxalq müqavilələrə və standartlara, o cümlədən milli qanunvericiliyə və digər normativ akt və təlimatlara uyğunsuzluq;

2.1.17 **Öhdəlik bəyanatı** - şəhadətnamə, sertifikat və mülki aviasiya fəaliyyəti ilə məşğul olmaq üçün hər hansı formada icazə almış fiziki və hüquqi şəxslər tərəfindən müvafiq icazə sənədinə və qanunvericiliyə uyğun fəaliyyət göstəriləcəyinə dair Agentliyə təqdim edilən yazılı bildiriş;

2.1.18 **nöqsanların aradan qaldırılması tədbiri** - təşkilatda uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin qiymətləndirilməsi zamanı meydana çıxan nöqsanların aradan qaldırılmasına yönəlmiş tədbirlər.

2.1.19 **Uçuşların təhlükəsizliyinə dair məlumat bazası** - uçuşların təhlükəsizliyinin idarə edilməsi sahəsində daxil olan, təhlil edilmiş və ya sistemləşdirilmiş informasiyanın məcmusu.

2.2 Bu Qaydada istifadə olunan digər anlayışlar "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 944-IIQ nömrəli Qanununda və bu sahəni tənzimləyən digər normativ hüquqi aktlarda nəzərdə tutulan mənaları ifadə edir.

3 QAYDANIN TƏTBİQ DAİRƏSİ

3.1 Bu Qayda 3.1.1–3.1.9-cu yarımbəndlərlə müəyyən edilən, mülki aviasiya sahəsində uçuşların təhlükəsizliyinin təmin edilməsinə və uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkilinə dövlət nəzarətini həyata keçirən səlahiyyətli şəxslərin və müfəttişlərin fəaliyyətinə şamil olunur və aşağıdakıları müəyyən edir:

3.1.1 Mülki aviasiya personalına və istismarçılarına şəhadətnamələrin verilməsinin təşkili və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsinin əsaslarını;

3.1.2 Aeronaviqasiya üzrə xidmət təminatçılarının sertifikatlaşdırılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsinin əsaslarını;

3.1.3 Mülki hava gəmilərinin uçuş əməliyyatları üzrə mülki aviasiya istismarçılarının fəaliyyətinin təhlükəsizliyinə nəzarətin həyata keçirilməsinin əsaslarını;

3.1.4 Azərbaycan Respublikasına uçuşlar yerinə yetirən xarici aviaşirkətlərin fəaliyyətinə nəzarətin həyata keçirilməsinin əsaslarını;

3.1.5 Mülki hava gəmilərinin, onların mühərriklərinin, pərlərinin, hissələrinin və quraşdırılmamış avadanlığın uçuşa yararlığına və ətraf mühitə uyğunluğuna nəzarətin həyata keçirilməsinin əsaslarını;

3.1.6 Mülki hava gəmilərinin uçuşa yararlılığının saxlanılmasına, onların uçuşa yararlılığının saxlanılmasını təmin edən və onlara texniki xidmət göstərən təşkilatların fəaliyyətinə nəzarətin həyata keçirilməsinin əsaslarını;

3.1.7 Aerodromların və helikopter meydançalarının layihələndirilməsi və fəaliyyətinə nəzarətin həyata keçirilməsinin əsaslarını;

3.1.8 Təhlükəli yüklərin mülki hava gəmiləri vasitəsilə daşınmasına nəzarətin həyata keçirilməsinin əsaslarını;

3.1.9 İstismarçıların və xidmət təminatçılarının uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkilinə nəzarətin əsaslarını.

4 UÇUŞLARIN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNƏ NƏZARƏTİN HƏYATA KEÇİRİLMƏSİNİN TƏŞKİLİ

4.1 Agentlik tabeliyindəki "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin səlahiyyətli şəxsləri və müfəttişləri vasitəsilə bu Qaydanın 5-ci hissəsində göstərilən istiqamətlər üzrə dövlət nəzarətini həyata keçirir.

4.2 Dövlət nəzarəti Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın 5-ci hissəsi ilə müəyyən edilmiş uçuşların təhlükəsizliyinin təmin edilməsi istiqamətlərinə uyğun

olaraq müfəttiş yoxlamalarının, təhlillərin, auditlərin, monitorinqlərin aparılması vasitəsilə həyata keçirilir.

4.3 Aşkar edilən nöqsanların uçuşların təhlükəsizliyinə təsirindən asılı olaraq, bu nöqsanların aradan qaldırılması məqsədilə aviasiya personalına və aviasiya subyektlərinə Agentlik tərəfindən müvafiq tədbirlər həyata keçirilir.

4.4 Agentlik tərəfindən həyata keçirilən dövlət nəzarəti və onun nəticələri barədə məlumatlar uçuşların təhlükəsizliyinə dair məlumat bazasına - qeydiyyat sisteminə daxil edilərək sistemli təhlil edilir və nöqsanların aradan qaldırılması üzrə müvafiq tədbirlərin görülməsi məqsədilə aidiyyəti şəxslərin və ya təşkilatların diqqətinə çatdırılır.

5 UÇUŞLARIN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNƏ NƏZARƏTİN HƏYATA KEÇİRİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

5.1 Uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarət aşağıdakı istiqamətlər üzrə risklərin və uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin qiymətləndirilməsi ilə eyni vaxtda həyata keçirilir:

5.1.1 Mülki aviasiya personalı üzrə;

5.1.2 Aeronaviqasiya xidmətləri üzrə;

5.1.3 Mülki hava gəmilərinin uçuş əməliyyatları üzrə;

5.1.4 Mülki aviasiya istismarçılarının uyğunluğu üzrə;

5.1.5 Digər dövlətdə qeydiyyatda olan istismarçı tərəfindən Azərbaycan Respublikasında istismar olunan mülki hava gəmilərinin uçuşa yararlılığı, uçuş əməliyyatları, uçuş heyəti və uçuş sənədlərinin uyğunluğu üzrə;

5.1.6 Mülki hava gəmilərinin, onların mühərriklərinin, pərlərinin, hissələrinin və quraşdırılmamış avadanlığın uçuşa yararlığına və ehtiyat hissələrinin və cihazlarının uçuşa yararlılığı və ətraf mühitə təsiri üzrə;

5.1.7 Mülki hava gəmilərinin uçuşa yararlılığının saxlanılması, onların uçuş yararlılığının saxlanılmasını təmin edən və onlara texniki xidmət göstərən təşkilatların fəaliyyəti üzrə;

5.1.8 Qəza-xilasetmə əməliyyatlarının təşkili üzrə;

5.1.9 Aerodromların və helikopter meydançalarının layihələndirilməsi və fəaliyyəti üzrə;

5.1.10 Təhlükəli yüklərin mülki hava gəmiləri ilə daşınması üzrə;

5.1.11 Uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkili üzrə.

5.2 Bu Qaydaların 5-ci hissəsində göstərilən istiqamətlər üzrə risklərin və uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin qiymətləndirilməsi həyata keçirilərkən, meyarlardan asılı olmayaraq yoxlama obyektləri üzrə faktların və vəziyyətin dəqiqləşdirilməsi məqsədilə, yoxlamanı həyata keçirən heyət (müfəttişlər daxil olmaqla) tərəfindən yoxlanılan məsələlərin mahiyyəti üzrə əlavə suallar verilə və əlavə məlumatlar tələb edilə bilər.

6 MÜLKİ AVİASİYA PERSONALI VƏ ONUN HAZIRLIĞI İLƏ BAĞLI FƏALİYYƏTƏ NƏZARƏTİN HƏYATA KEÇİRİLMƏSİ

6.1 Agentlik uçuş heyəti üzvlərinə, hava hərəkətini idarəetmə dispetçerlərinə, hava gəmilərinə texniki xidmət göstərən mütəxəssislərə, aviasiya personalının hazırlığı üzrə təlimatçı və imtahanedənlərə, uçuşu simulyasiya edən təlim cihazlarına, aviasiya personalına xidmət göstərən tibbi mərkəzlərə və təlim təşkilatlarına şəhadətnamələr verir və onların fəaliyyətinin "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 944-IIQ nömrəli Qanununa və beynəlxalq standartların tələblərinə uyğun qaydada həyata keçirilməsinə nəzarət edir.

6.2 Bu Qaydanın 6.1-ci bəndində göstərilən tələblərə əməl edilməsinin təmin olunması məqsədilə Agentlik uyğunluğun müvafiq təminat vasitələrini işləyib hazırlayır.

6.3 Agentlik mülki aviasiya sahəsində fəaliyyət göstərən xidmət təminatçıları, mülki hava gəmilərinin istismarçıları və digər təşkilatlar tərəfindən istifadə olunan uyğunluğun alternativ təminat vasitələrinin mütəmadi qiymətləndirilməsini həyata keçirir.

6.4 Agentlik mülki aviasiya istismarçısının təklif etdiyi uyğunluğun bütün alternativ təminat vasitələrini təqdim olunan sənədlərin təhlili və müfəttiş yoxlaması vasitəsilə qiymətləndirir.

6.5 Agentlik uyğunluğun alternativ təminat vasitələrinin qənaətbəxş olduğunu müəyyən etdikdə, aşağıdakı hərəkətlərdən birini edir:

6.5.1 Müraciət edən şəxsi uyğunluğun alternativ təminat vasitələrinin tətbiq edilə biləcəyinə dair məlumatlandırır və onun şəhadətnaməsində düzəliş edir;

6.5.2 Qəbul edilmiş uyğunluğun alternativ təminat vasitələri haqqında digər xidmət təminatçılarına məlumat verir;

6.5.3 Agentlik uyğunluğun alternativ təminat vasitələrini qəbul etdikdə, mülki aviasiya sahəsində fəaliyyət göstərən xidmət təminatçılarını, mülki hava gəmilərinin istismarçılarını və digər təşkilatları bu barədə məlumatlandırır.

6.6 Mülki aviasiya istismarçısı qanunvericiliyin tətbiqi ilə bağlı uçuşların təhlükəsizliyi üçün riskin ciddiliyini müəyyən etdikdə, dərhal Agentliyi bu barədə məlumatlandırmalıdır.

6.7 Agentlik uçuşların təhlükəsizliyinə dair məlumatları toplamaq, təhlil etmək və aidiyyəti mülki aviasiya istismarçıları arasında yaymaq üçün mülki aviasiya sahəsində məlumatların vahid qeydiyyat sistemini təsis edir.

6.8 Uçuşların təhlükəsizliyi ilə bağlı zəruri məlumatları əldə etdikdən sonra Agentlik təhlükəsizlik probleminin həll edilməsi üçün tədbirlər görür.

6.9 Agentlik tərəfindən toplanılan məlumatlar qanunvericilik çərçivəsində onlara riayət etməli olan bütün şəxslərə və təşkilatlara dərhal çatdırılmalıdır.

6.10 Agentlik mülki aviasiya istismarçılarının fəaliyyətinə nəzarət nəticəsində aşkar edilmiş nöqsanlar və həmin nöqsanların aradan qaldırılması məqsədilə görülən sonrakı tədbirlər

üzrə bütün zəruri məlumatların mülki aviasiya istismarçıları ilə qarşılıqlı mübadiləsində iştirak edir.

6.11 "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 944-IIQ nömrəli Qanununda nəzərdə tutulmuş tələblərə uyğun olan şəxslərə və təşkilatlara ilkin şəhadətnamələrin verilməsi və onlara fasiləsiz nəzarət Agentlik tərəfindən həyata keçirilir.

6.12 Agentlik mülki aviasiya istismarçılarının vəzifələrini icra etmək və öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir göstərən dəyişiklikləri müəyyən etmək üçün mülki aviasiya sahəsində məlumatların vahid qeydiyyat sistemini yaradır və tətbiq edir. Bu sistem idarəetmə sisteminin adekvat və səmərəli fəaliyyətini təmin etmək üçün Agentliyə müvafiq tədbirlər görməyə imkan verməlidir.

6.13 Mülki aviasiya istismarçıları vəzifələrini və öhdəliklərini lazımi şəkildə icra etmələrinə təsir göstərə biləcək dəyişikliklər barədə Agentliyi məlumatlandırırlar.

6.14 Agentlik aşağıda qeyd olunanların qorunub saxlanılmasını, əlçatanlığını və etibarlı şəkildə izlənilməsini təmin edən mülki aviasiya sahəsində məlumatların vahid qeydiyyat sistemini yaradır:

6.14.1 İdarəetmə sisteminin sənədləşdirilmiş prosedurları;

6.14.2 İşçi heyətlə keçirilən təlimlər, onların ixtisaslaşdırılması və səlahiyyətlərin verilməsi;

6.14.3 Mülki aviasiya personalının və istismarçılarının vəzifə bölgüsü, habelə verilmiş vəzifələrin təfərrüatları;

6.14.4 Şəhadətnamələrin və öhdəlik bəyanatlarının verilməsi prosesləri, eləcə də şəhadətnamə verilən mülki aviasiya istismarçılarına nəzarətin həyata keçirilməsi forması;

6.14.5 Uçuşu simulyasiya edən təlim cihazlarına şəhadətnamələrin verilməsi prosesi və onları istismar edən təşkilatlara daimi nəzarət formaları;

6.14.6 Digər üzv dövlətin ərazisində fəaliyyət göstərən, mülki aviasiya sahəsində hər iki dövlətin səlahiyyətli orqanları arasındakı razılaşmaya əsasən həmin dövlətin səlahiyyətli orqanı tərəfindən nəzarət edilən və ya fəaliyyəti sertifikatlaşdırılan şəxslər və təşkilatlar üzərində nəzarətin formaları;

6.14.7 Xidmət təminatçılarının təklif etdiyi alternativ uyğunluq vasitələrinin qiymətləndirilməsi və onlar haqqında Agentliyin məlumatlandırılması prosesi;

6.14.8 Aşkar edilən çatışmazlıqlar, onların aradan qaldırılması üzrə tədbirlər və konkret tarixlər;

6.14.9 Agentlik tərəfindən görülən müvafiq tədbirlər;

6.14.10 Uçuşların təhlükəsizliyinə dair toplanan məlumatlar və görüləcək tədbirlər.

6.15 Agentlik mülki aviasiya istismarçılarına verdiyi bütün şəhadətnamələrin uyğunluğunu təmin etmək üçün təlim təşkilatlarının, yaxud təsdiqlədiyi təlim proqramlarının siyahısını aparır və bu siyahını daim yeniləyir.

6.16 Bütün qeydiyyat sənədləri ən azı 5 (beş) il müddətində saxlanılmalıdır.

6.17 Agentlik mülki aviasiya istismarçılarına şəhadətnamələrin, o cümlədən ixtisas şəhadətnamələrinin verilməsindən, həmçinin onlara verilən şəhadətnamələrin təsdiq edilməsindən əvvəl aşağıdakıları yoxlayır:

6.17.1 Təşkilatların və ya şəxslərin beynəlxalq standartların və milli qanunvericiliyin tələblərinə uyğunluğunu;

6.17.2 Şəhadətnamə sahiblərinə, sertifikatlaşdırılan təşkilatlara, ixtisas şəhadətnaməsi sahiblərinə və bəyannamənin alındığı təşkilatlara dair beynəlxalq standartlar və milli qanunvericiliklə nəzərdə tutulan tələblərə riayət olunmasını;

6.17.3 Təhlükəsizlik tədbirlərinin həyata keçirilməsini.

6.18 Bu Qaydanın 6.17-ci bəndində qeyd edilən yoxlama zamanı aşağıdakılar təmin edilməlidir:

6.18.1 Uçuşun təhlükəsizliyinə görə cavabdeh olan işçilərin öz funksiyalarını yerinə yetirmələri üçün təsdiqedici sənədlərin rəsmiləşdirilməsini;

6.18.2 Əlaqəli şəxslərə və təşkilatlara uçuş təhlükəsizliyinə nəzarət üzrə fəaliyyətin nəticələrini təqdim ediməsini;

6.18.3 Audit yoxlamaları və təftişlərin əsaslandırılmasını;

6.18.4 Gələcəkdə görülməli olan tədbirlərin dairəsini.

6.19 Bu Qaydanın 6.17-ci bəndinə uyğun olaraq nəzarətin əhatə dairəsi müəyyən edilərkən, daha əvvəl həyata keçirilmiş nəzarət tədbirlərinin nəticələri və uçuşların təhlükəsizliyi üzrə prioritetlər nəzərə alınmalıdır.

6.20 Agentlik mülki aviasiya personalı və istismarşılarına nəzarəti həyata keçirmək üçün nəzarət proqramını işləyib hazırlayır tətbiq edir.

6.21 Agentlik tərəfindən sertifikatlaşdırılmış təşkilatların və müvafiq ixtisas şəhadətnamələrinin sahibləri üçün nəzarət proqramı təşkilatın xüsusiyyətləri, şəxslərin fəaliyyətinin mürəkkəbliyi, o cümlədən daha əvvəl həyata keçirilmiş sertifikatlaşdırmanın və nəzarət fəaliyyətinin nəticələri nəzərə alınmaqla işlənib hazırlanmalı və əlaqəli risklərin qiymətləndirilməsinə əsaslanmalıdır.

6.22 Hər bir nəzarət-planlaşdırma dövrü auditləri, müfəttiş yoxlamalarını, o cümlədən elan edilməmiş yoxlamaları və mülki aviasiya istismarçılarının mühüm məsələlər barədə məlumatlandırılmasını təmin etmək üçün məsul rəhbər və Agentlik tərəfindən çağırılan müşavirələri əhatə edir.

6.23 Agentlik tərəfindən sertifikatlaşdırılmış təşkilatlarin və müvafiq ixtisas şəhadətnamələrinin sahiblərinə 24 (iyirmi dörd) aydan çox olmayan nəzarət-planlaşdırma dövrü tətbiq edilir. Mülki aviasiya istismarçısının uçuşların təhlükəsizliyi ilə bağlı göstəricilərinin aşağı düşdüyünə dair sübutlar olduqda, nəzarət-planlaşdırma dövrü qısaldıla bilər.

6.24 Bu Qaydanın 6.23-cü bəndində qeyd edilən təşkilatın fəaliyyəti ilə bağlı aşağıdakıları müəyyən etdikdə Agentlik əvvəlki 24 (iyirmi dörd) ay ərzində nəzarət-planlaşdırma dövrünü ən çox 36 (otuz altı) aya qədər uzada bilər:

6.24.1 Uçuşların təhlükəsizliyinə təhdidlərin səmərəli şəkildə aşkarlanmasını və bununla bağlı risklərin idarə olunduğunu nümayiş etdirildikdə;

6.24.2 Bütün dəyişikliklər üzərində tam nəzarətin həyata keçirildiyini fasiləsiz nümayiş

etdirildikdə;

6.24.3 Mülki aviasiya istismarçısının və ya aviasiya pesonalının fəaliyyətində I dərəcəli nöqsan aşkar olunmadıqda;

6.24.4 Agentlik tərəfindən müəyyən edilən nöqsanların aradan qaldırılması üzrə görülən tədbirlər təsdiq edilmiş və ya uzadılmış müddət ərzində həyata keçirildikdə.

6.25 Uçuşların təhlükəsizliyinin təminatı və normativ tələblərə riayət olunması baxımından səmərəli fəaliyyət göstərən təşkilat üzərində nəzarət-planlaşdırma dövrü əlavə olaraq maksimum 48 (qırx səkkiz) aya qədər uzadıla bilər .

6.26 Agentlik əvvəlki 48 (qırx səkkiz) ay ərzində aşağıdakı halları müəyyən edərsə, nəzarət-planlaşdırma dövrü ən çox 72 (yetimiş iki) ay müddətinədək uzadıla bilər:

6.26.1 Təşkilat illik icmalda əks olunduğu kimi, uçuşların təhlükəsizliyinə təhdidlərin səmərəli şəkildə aşkarlanmasını və bununla bağlı risklərin idarə olunduğunu nümayiş etdirdikdə;

6.26.2 Təşkilat illik icmalda əks olunduğu kimi, bütün dəyişikliklər üzərində tam nəzarətin həyata keçirildiyini fasiləsiz nümayiş etdirdikdə;

6.26.3 I dərəcəli nöqsanlar aşkar olunmadıqda;

6.26.4 Uçuşların təhlükəsizliyinə təhdid yaradan nöqsanların aradan qaldırılması üzrə tədbirlər Agentlik tərəfindən təsdiq edilmiş və ya uzadılmış müddət ərzində həyata keçirildikdə.

6.27 Nəzarət proqramı auditlərin, müfəttiş yoxlamalarının, təftişlərin və görüşlərin keçiriləcəyi tarixləri özündə ehtiva etməlidir.

6.28 Təlim təşkilatlarının nəzarət proqramları onların fəaliyyətinin xüsusiyyətləri, mürəkkəbliyi və daha əvvəl həyata keçirilmiş nəzarət fəaliyyətinin nəticələri nəzərə alınmaqla işlənib hazırlanmalı və keçirilmiş təlimin növü ilə bağlı risklərin dəyərləndirilməsinə əsaslanmalıdır.

6.29 Mülki aviasiya istismarçısının ilkin şəhadətnamənin alınmasına dair müraciətini aldıqdan sonra Agentlik onun uyğunluğunu yoxlayır.

6.30 Mülki aviasiya istisimarçısının və aviasiya personalının bu Qaydanın 6.29-cu bəndində qeyd edilən uyğunluq tələblərinə cavab verdiyini müəyyən edərək, Agentlik onlara ilkin şəhadətnamə verir.

6.31 Mülki aviasiya istismarçısının və aviasiya personalının Agentliyin əvvəlcədən razılığı olmadan dəyişiklikləri həyata keçirməsinə imkan verməmək üçün Agentlik dəyişikliklərin həcmini, onların necə idarə olunacağını, bu barədə məlumat verilməsi qaydasını müəyyən edən müvafiq təlimat hazırlayaraq təsdiq edir.

6.32 Mülki aviasiya personalına şəhadətnamə verilməsinə, yenidən rəsmiləşdirilməsinə, müddətinin uzadılmasına və yaxud dəyişdirilməsinə dair müraciəti qəbul etdikdən sonra Agentlik müraciət edən şəxsin müvafiq tələblərə uyğunluğunu yoxlayır.

6.33 Müraciət edən şəxs tələblərə cavab verdiyi halda Agentlik ona şəhadətnaməni təqdim edir və ya onun hüquqi qüvvəsini uzadır, yaxud mövcud şəhadətnaməni əvəzləyir.

6.34 Təşkilatın dəyişikliyin təsdiq edilməsinə dair müraciətini aldıqdan sonra Agentlik onu təsdiq etməzdən əvvəl həmin təşkilatın müvafiq tələblərə uyğunluğunu yoxlayır.

6.35 Agentlik mülki aviasiya personalının şəhadətnaməsinin hüquqi qüvvəsinin dayandırılması barədə qərar qəbul etmədikdə, mülki avaisiya istismarçısı tərəfindən hər hansı struktur və ya digər dəyişiklik aparıldığı müddətdə onun fəaliyyəti ilə bağlı şərtləri müəyyən edir.

6.36 Mülki aviasiya istismarçısı tələblərə cavab verirsə, səlahiyyətli orqan həmin dəyişikliyi təsdiq edir.

6.37 Mülki aviasiya istismarçısı əvvəlcədən təsdiq edilməsi tələb olunan dəyişiklikləri Agentliyin razılığı olmadan həyata keçirdikdə, Agentlik onun şəhadətnaməsinin hüquqi qüvvəsini dayandırır, tətbiq dairəsini məhdudlaşdırır və ya hüquqi qüvvəsinə xitam verir.

6.38 Mülki aviasiya personalı və istismarçısının fəaliyyətində hər hansı uyğunsuzluq aşkar etdikdə, Agentlik aşağıdakı tədbirləri görür:

6.38.1 Uyğunsuzluq haqqında mülki aviasiya istismarçısını məlumatlandırır və əlavə dəyişikliklərin edilməsini tələb edir;

6.38.2 I və ya II dərəcəli nöqsanlar aşkar olunduqda bu Qaydanın 6.43-cü və 6.44-cü bəndləri ilə müəyyən olunmuş tədbirləri həyata keçirir.

6.39 Mülki aviasiya istismarçısı tərəfindən bu Qaydanın 6.1-ci bəndi ilə müəyyən edilmiş normativ sənədlərin tələblərinə, təşkilatın daxili prosedur və qaydalarına, verilən şəhadətnamə və sertifikatın şərtlərinə uyğun olmayan, həçinin uçuşların təhlükəsizliyinin təmin edilməsi səviyyəsini aşağı salan və yaxud onu riskə məruz qoyan hər hansı ciddi təsir edən uyğunsuzluq Agentlik tərəfindən I dərəcəli nöqsan kimi təsnif edilir.

6.40 Mülki aviasiya istismarçısı tərəfindən bu Qaydanın 6.1-ci bəndi ilə müəyyən edilmiş normativ sənədlərin tələblərinə, təşkilatın daxili prosedurlarına, rəhbər qaydalarına, şəhadətnamə və sertifikatın şərtlərinə uyğun olmayan, həmçinin uçuşların təhlükəsizliyinin təmin edilməsi səviyyəsini aşağı salan və yaxud onu riskə məruz qoya bilən hər hansı uyğunsuzluq Agentlik tərəfindən II dərəcəli nöqsan kimi təsnif edilir.

6.41 Nəzarətin həyata keçirilməsi zamanı nöqsanlar aşkar olunduqda, Agentlik bu barədə mülki aviasiya istismarçısına yazılı xəbərdarlıq verir və nöqsanların aradan qaldırılması üçün tədbirlərin görülməsini tələb edir.

6.42 I dərəcəli nöqsanlar aşkar olunduğu halda, Agentlik mülki aviasiya personalı və ya mülki aviasiya istismarçısının fəaliyyətinin qadağan edilməsi və ya məhdudlaşdırılması üzrə təxirəsalınmaz tədbirlər görür və nöqsanın məzmunundan asılı olaraq, mülki aviasiya istisimarçısı tərəfindən zəruri tədbirlər görülənədək, şəhadətnamənin və ya sertifikatın hüquqi qüvvəsinin tam və yaxud qismən məhdudlaşdırılması və ya dayandırılması üzrə tədbirlər görür.

6.43 II dərəcəli nöqsanlar müəyyən olunduqda, Agentlik aşağıdakı tədbirləri görür:

6.43.1 Nöqsanın xarakterindən asılı olaraq, mülki aviasiya istismarçısına nöqsanların aradan qaldırılması üzrə tədbirlərin həyata keçirilməsi üçün ilkin olaraq 3 (üç) aydan artıq olmayan müddət verir. Bu müddətin sonunda nöqsanın xarakterindən asılı olaraq, Agentlik ilə razılaşdırılmış tədbirlər planına uyğun olaraq, əlavə 3 (üç) aylıq müddət verə bilər;

6.43.2 Mülki aviasiya istismarçısının nöqsanların aradan qaldırılması üzrə tədbirlərini və onların həyata keçirilməsi planını qiymətləndirir və qiymətləndirmə nəticəsində

uyğunsuzluğun aradan qaldırılması üçün bu tədbirlərin kifayət olması barədə nəticəyə gəldikdə, həmin tədbirlər planını təsdiq edir.

6.44 Mülki aviasiya istisimarçısı nöqsanların aradan qaldırılması üzrə tədbirlər planını təqdim etmədiyi və ya Agentlik tərəfindən verilmiş və ya uzadılmış müddətdə hər hansı tədbir görülmədiyi təqdirdə, aşkar edilmiş II dərəcəli nöqsanlar I dərəcəli nöqsan kimi təsnif edilir.

6.45 Agentlik aşkar etdiyi və ya ona bildirilən bütün nöqsanların və tətbiq etdiyi bütün müvafiq tədbirlərin, habelə nöqsanların aradan qaldırılması üzrə tədbirlərin nəticələrinin qeydiyyatını aparır.

6.46 Agentlik nəzarəti həyata keçirdiyi zaman şəhadətnamə sahibinin qanunvericiliklə müəyyən edilmiş tələblərə riayət etmədiyinə dair sübutlar aşkar edərsə, belə nöqsanlara dair rəy verərək qeydə alır, şəhadətnamənin sahibinə bu barədə yazılı məlumat verir və araşdırma aparır. Nöqsanın olması təsdiqləndikdə, Agentlik aşağıdakı tədbirləri görür:

6.46.1 Uçuşların təhlükəsizliyinə dair nöqsan aşkarlandıqda, şəhadətnamənin hüquqi qüvvəsini məhdudlaşdırır, dayandırır və ya onu ləğv edir;

6.46.2 Uyğunsuzluğun davam etməsinin qarşısını almaq üçün müvafiq tədbirlər görür.

6.47 Uçuş heyətinə və heyət üzvlərinə şəhadətnamələr tələblərə uyğun olaraq verilir.

6.48 Agentlik müraciət edən şəxslərin nəzəri biliklərə malik olmalarını müəyyən etmək üçün onların peşəkar hazırlıq səviyyəsinin yoxlanılmasına dair tələblərə uyğun olaraq imtahan təşkil edir.

6.49 Agentlik aşağıdakı hallarda heyət üzvlərinə verilən şəhadətnamələrin hüquqi qüvvəsinin dayandırılması və yaxud ləğv edilməsi barədə qərar verir:

6.49.1 Uçuşların təhlükəsizliyinə təhdid yarada biləcək hər hansı hal aşkar edildikdə;

6.49.2 Heyət üzvləri tərəfindən şəhadətnamənin alınması üçün təqdim olunan sənədlərin saxtalaşdırılması müəyyən edildikdə;

6.49.3 Spirtli içkilərin, narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının təsiri altında vəzifələr icra olunduqda;

6.49.4 Hüquqlardan sui-istifadə edildikdə.

6.50 Təlim təşkilatına uçuş və dispetçer heyətlərinin təlim keçməsinə icazə vermədən əvvəl Agentlik aşağıdakıları yoxlayır:

6.50.1 Təşkilat tərəfindən təlim kurslarının keçirilməsini, təlim proqramının və digər əlaqəli proqramların tələblərə uyğunluğunu;

6.50.2 Təşkilatın istifadə etdiyi təlim qurğularının müvafiq növ hava gəmisinin sərnişin salonundakı şəraiti və heyət üzvləri tərəfindən istismar olunan avadanlığın texniki xarakteristikalarını əks etdirməsini;

6.50.3 Təlimçilərin və təlimatçıların təlimin mövzusu ilə bağlı müvafiq sahədə təcrübə və ixtisasının mövcudluğunu.

6.51 Agentlik təlim təşkilatlarına dövlət nəzarətinin həyata keçirilməsi, o cümlədən onlar barədə görülən müvafiq tədbirlərin qeydiyyat sisteminə salınması üçün zəruri məlumat və sənədləri təlim təşkilatlarından tələb edir.

6.52 Uçuşu simulyasiya edən təlim cihazlarının sertifikatlaşdırılması üçün müraciəti qəbul etdikdən sonra Agentlik aşağıdakı tədbirləri görür:

6.52.1 Təqdim edilən təlim cihazının ilkin qiymətləndirilməsini aparır və tətbiq olunan təsnifat bazasına əsasən onun təsnifatının artırılması üçün nəzarəti həyata keçirir;

6.52.2 Vəziyyətdən asılı olaraq, uçuş heyəti üzvünün təlim, sınaqdan keçmə və yoxlanılma prosesinin həyata keçirilməsi üçün zəruri olan sahələrdə cihazı qiymətləndirir;

6.52.3 Təsnifat bazasına uyğun olaraq obyektiv, subyektiv və funksional sınaqlar keçirir və təsnifat testləri üzrə təlimat hazırlayıb tətbiq etmək üçün bu cür sınaqların nəticələrini nəzərdən keçirir;

6.52.4 İstismar edən təşkilatın tətbiq olunan tələblərə uyğunluğunu yoxlayır.

6.53 Agentlik təlimatı cihazın ilkin dəyərləndirməsi bitdikdən və təlimatdakı bütün uyğunsuzluqlar aradan qaldırıldıqdan sonra təsdiqləyir. İlkin dəyərləndirmə proseduru nəticəsində təsdiq edilən təlimat cihazın daha sonra qiymətləndirilməsi üçün əsasdır.

6.54 Uçuşu simulyasiya edən təlim cihazının bazası üçün xüsusi şərtlər müəyyən edildikdə, Agentliyə bu barədə xəbər verilməlidir. Müəyyən edilmiş şərtlərin tam təsviri və tətbiq edilən uçuşa yararlılıq normaları üçün müəyyən olunmuş təhlükəsizlik səviyyəsinə ekvivalent olan səviyyənin təmin edildiyini göstərən təhlükəsziliyin dəyərləndirilməsi sənədilə müşayiət olunmalıdır.

6.55 Cihazın qiymətləndirilməsi başa çatdıqdan sonra həmin cihaz tətbiq olunan bazaya uyğun olduqda, həmçinin onu istismar edən təşkilat tərəfindən cihazın təsnifatını qüvvədə saxlamaq üçün tətbiq edilən tələblərə cavab verdikdə, Agentlik ərizəçiyə müvafiq sertifikat verir.

6.56 Agentlik aşağıda qeyd olunanları daim nəzarətdə saxlamalıdır:

6.56.1 Dövri qiymətləndirmələrin nəticələrini və təlim cihazının təsnifat standartlarına cavab verdiyini, o cümlədən qiymətləndirmənin aparıldığı tarixi;

6.56.2 Təsnif edilmiş təlim cihazının aparat və proqram təminatının yüksək təhlükəsizlik və etibarlılıq səviyyəsinin təmin edilməsi üçün onu istismar edən müvafiq təşkilatda nəzarət sisteminin mövcudluğunu.

6.57 Uçuşu simulyasiya edən təlim cihazının sertifikatına hər hansı dəyişikliklərin edilməsinə dair müraciəti qəbul etdikdən sonra Agentlik ilkin dəyərləndirmə proseduruna uyğun yoxlama həyata keçirir.

6.58 Agentlik, cihazın konstruksiyasında onun təyinatına uyğun istismarına təsir edə biləcək dəyişikliklər edildikdə və ya cihazın öz ilkin təsnifatı səviyyəsinə cavab vermədiyini müəyyən etdikdə xüsusi qiymətləndirmə keçirə bilər.

6.59 Agentlik aşağıdakı hallarda uçuşu simulyasiya edən cihazın sertifikatının hüquqi qüvvəsini məhdudlaşdırır, dayandırır və ya onu ləğv edir:

6.59.1 Sertifikatın verilməsi üçün təqdim olunan sənədlərin saxtalaşdırılmasını aşkar

etdikdə;

6.59.2 Cihazı istismar edən təşkilatın onun təsnifatı bazasına uyğun olmadığını müəyyən etdikdə;

6.59.3 Cihazı istismar edən təşkilatın tələblərə cavab vermədiyini müəyyən etdikdə.

6.60 Tibbi mərkəzlər prosedurlara uyğun sertifikatlaşdırılır.

6.61 Tibbi mərkəzlərdə aşağıdakı hallar aşkarlandıqda I dərəcəli nöqsanlar kimi təsnif edilir:

6.61.1 Tibbi mərkəzin rəhbərinin təyin olunmaması;

6.61.2 Tibbi uçot qeydlərinin məxfiliyinin qorunmasının təmin edilməməsi;

6.61.3 Nəzarət məqsədiləri üçün səlahiyyətli orqana tibbi və statistik məlumatlarınverilməməsi.

6.62 Agentlik tibbi mərkəzlərin yoxlanmasını həyata keçirmək üçün bir və ya daha çox tibbi ekspert təyin edir. Tibbi ekspert tibb sahəsində ixtisasa və şəhadətnaməyə, 5 (beş) illik iş təcübəsinə malik olmalı və tibbi sertifikatlaşdırma üzrə xüsusi təlim keçməlidir.

6.63 Agentlik tərəfindən təyin olunmuş tibbi ekspert və ya tibbi işçi müvafiq tibbi sənədləri dəyərləndirməli və ehtiyac olduqda, əlavə tibbi sənədləri, imtahan və sınaqların nəticələrini tələb etmək hüququna malikdir.

6.64 Agentlik şəhadətnamələrin sahiblərinə dair bütün tibbi qeydləri onların son tibbi şəhadətnaməsinin qüvvədən düşdüyü tarixdən sonra ən azı 10 (on) il ərzində qoruyub saxlayır.

6.65 Tibbi ekspertlərə müvafiq şəhadətnamələr Agentlik tərəfindən verilir. Şəhadətnamənin alınması üçün müraciət edən şəxs ekspert müayinələrini aparmaq üçün müvafiq hazırlığa malik olduğunu təsdiq edən sənədləri Agentliyə təqdim etməlidir.

6.66 Agentlik tibbi ekspertin müəyyən edilmiş qaydalara uyğunluğunu müəyyən etdikdən sonra 3 (üç) illik hüquqi qüvvəyə malik olan tibbi şəhadətnamə rəsmiləşdirir.

6.67 Agentlik aşağıdakı hallarda tibbi ekspertə verilmiş şəhadətnamənin hüquqi qüvvəsini məhdudlaşdıra, dayandıra və ya onu ləğv edə bilər:

6.67.1 Tibbi ekspert müvafiq tələblərə cavab vermədikdə;

6.67.2 Tibbi ekspert qüvvədə olan sertifikasiya meyarlarına uyğun olmadıqda;

6.67.3 Tibbi qeydiyyat düzgün şəkildə aparılmadıqda və ya yanlış məlumatlar təqdim olunduqda;

6.67.4 Tibbi qeydiyyat sənədləri, şəhadətnamələr və digər sənədlər saxtalaşdırıldıqda;

6.67.5 Tibbi şəhadətnamənin alınması üçün müraciət edən şəxsin təqdim etdiyi sənədlərdə hər hansı fakt gizlədildikdə və ya Agentliyə yanlış məlumatlar verilməsi aşkar olunduqda;

6.67.6 Müfəttiş yoxlamasından sonra nöqsanlar aradan qaldırılmadıqda;

6.67.7 Ekspertin müvafiq müraciəti əsasında.

6.68 Agentlik hava gəmisinə texniki xidmət göstərən şəxslərə şəhadətnamənin verilməsi, ona dəyişikliklərin edilməsi, etibarlılıq müddətinin uzadılması və şəhadətnamə sahiblərinə nəzarət baxımından aşağıdakıları həyata keçirir:

6.68.1 Şəhadətnamənin alınması üçün müraciət edən şəxsin şəxsiyyətini, habelə bilik və təcrübə ilə bağlı tələblərə uyğunluğunu yoxlayaraq ona 5 (beş) il müddətində etibarlı olan şəhadətnamə təqdim edir;

6.68.2 Şəhadətnaməyə kateqoriyanın, altkateqoriyanın və ya sistem reytinqinin əlavə olunması üçün müraciət edən şəxsin bilik və təcrübəsi ilə bağlı tələblərə uyğunluğunu yoxlayaraq, onun şəhadətnaməsinə müvafiq kateqoriyanı, altkateqoriyanı və ya sistem reytinqini əlavə edir;

6.68.3 Şəhadətnaməyə hava gəmisi reytinqinin əlavə olunması üçün müraciət edən şəxsin hava gəmisinin növü üzrə bilik və təcrübəsi ilə bağlı tələblərə uyğunluğunu yoxlayaraq, onun şəhadətnaməsinə müvafiq hava gəmisi reytinqini əlavə edir;

6.68.4 Şəhadətnamədə məhdudiyyətlər və bu məhdudiyyətlərin aradan qaldırılması üçün şərtlər müəyyən edir, habelə sözügedən şərtlər yerinə yetirildikdə məhdudiyyətləri aradan qaldırır;

6.68.5 Şəhadətnamənin etibarlılıq müddətinin uzadılması üçün müraciət edən şəxsin təqdim etdiyi məlumatların qeydiyyat sistemində olan şəhadətnamə ilə müqayisə edərək, onun etibarlılıq müddətini 5 (beş) il uzadır;

6.68.6 Şəhadətnamədə olan məlumatların qeydiyyat sistemində olan şəhadətnamədəki məlumatlardan fərqli olduğunu müəyyən etdikdə bunun səbəbini araşdırır, eləcə də bu faktın birbaşa təsir edə biləcəyi təşkilatlara bu barədə xəbərdarlıq edir;

6.68.7 İmtahanlar keçirir;

6.68.8 İmtahan kreditlərinin aşağıdakılar arasında müqayisəsini özündə ehtiva edən kredit hesabatı əsasında 10 (on) illik müddətə təqdim edir:

1. modullar, altmodullar, fənlər və bilik səviyyələri;
2. müvafiq texniki kvalifikasiyanın tədris proqramı;
3. uçuşların təhlükəsizliyinə təsir edən məsələ olduqda, yaxud şəhadətnamə sahibinin aşağıdakı fəaliyyət növlərindən birini və ya bir neçəsini həyata keçirdiyinə, yaxud bu fəaliyyət növlərində iştirakına dair sübutlar olduqda, şəhadətnamənin hüquqi qüvvəsini dayandırır, məhdudlaşdırır və ya onu ləğv edir:
4. şəhadətnamənin saxta sənədlər təqdim etmək yolu ilə əldə olunması;
5. sorğu edilmiş texniki xidməti göstərməməklə yanaşı, bu faktın texniki xidməti sorğu edən təşkilata və ya şəxsə bu fakt barədə hesabat verilməməsi;
6. öz yoxlamasından qaynaqlanaraq tələb olunan texniki xidmətin yerinə yetirilməməsi ilə birlikdə texniki xidmətin göstərilməsi nəzərdə tutulan təşkilata və ya şəxsə bu fakt barədə hesabat verilməməsi;
7. texniki xidmətin səhlənkarlıqla yerinə yetirilməsi;
8. texniki xidmətə dair qeydlərin saxtalaşdırılması;
9. istismara buraxılış sertifikatında göstərilən texniki xidmətin yerinə yetirilmədiyini bilərək və ya bu cür texniki xidmətin keçirilib-keçirilmədiyini yoxlamadan istismara buraxılış sertifikatının verilməsi;

10. spirtli içkilərin, narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekusorlarının təsiri altında texniki xidmətin yerinə yetirilməsi və ya istismara buraxılış sertifikatının təsdiq edilməsi;
11. müvafiq tələblərə riayət olunmadığı halda istismara buraxılış sertifikatının verilməsi.

6.68.9 Məlumatların qeydiyyat sisteminə aşağıdakı məlumatlar daxil edilir:

1. şəhadətnamənin alınması və onda dəyişiklik edilməsi ilə bağlı müraciətlər, o cümlədən bütün müşayiət sənədləri;
2. şəhadətnamənin surəti, o cümlədən onda edilmiş istənilən dəyişikliklər;
3. bütün müvafiq yazışmaların surəti;
4. hər hansı istisna və ya müvafiq tədbirlər haqqında məlumatlar;
5. şəhadətnamə sahibinə aid xarici dövlətlərin mülki aviasiya sahəsində səlahiyyətli orqanların verdiyi istənilən hesabatlar;
6. Agentlik tərəfindən keçirilən imtahanların hesabatları;
7. imtahan kreditlərinin verilməsi üçün istifadə olunan hesabatlar.

6.68.10 Bu Qaydanın 6.68.9-cu bəndinin 1-5-ci hissələrində qeyd edilən məlumatlar 5 (beş) il müddətində, bu Qaydanın 6.68.9-cu bəndinin 6-7-ci hissələrində qeyd edilən məlumatlar isə Məlumatların qeydiyyat sistemində daimi saxlanılır.

6.69 Mülki aviasiya sahəsində məlumatların vahid qeydiyyat sisteminə aşağıdakıları daxil edilir:

6.69.1 Texniki xidmət şəhadətnaməsinin alınması, onda dəyişiklik edilməsi və ya etibarlılıq müddətinin uzadılması ilə bağlı müraciətlər, o cümlədən bütün müşayiət sənədləri;

6.69.2 Texniki xidmət şəhadətnaməsinin surəti, o cümlədən onda edilmiş istənilən dəyişikliklər;

6.69.3 Bütün müvafiq yazışmaların surəti;

6.69.4 Hər hansı istisna və ya müvafiq tədbirlər haqqında məlumatlar;

6.69.5 Texniki xidmət şəhadətnaməsinin sahibinə aid digər səlahiyyətli orqanların verdiyi istənilən hesabatlar;

6.69.6 Agentlik tərəfindən keçirilən imtahanların protokolları;

6.69.7 İmtahan kreditlərinin verilməsi üçün istifadə olunan hesabatlar.

6.70 Bu Qaydanın 6.69.1 - 6.69.5-ci yarımbəndlərində qeyd edilən məlumatlar 5 (beş) il müddətinə, bu Qaydanın 6.69.6-cı və 6.69.7-ci yarımbəndlərində qeyd edilən məlumatlar isə qeyri-məhdud müddət ərzində saxlanılmalıdır.

6.71 Agentlik texniki xidmət üzrə təlim və imtahan keçirən təşkilatlara nəzarət baxımından aşağıdakıları həyata keçirir:

6.71.1 Onların təsdiq edilməsi və ya təsdiq sənədinə dəyişikliklərin edilməsi ilə bağlı ərizə aldıqda həmin təşkilatın və onun təlimatının müvafiq tələblərə uyğunluğunu yoxlayır və təsdiq edir;

6.71.2 Təşkilatın müvafiq tələblərə uyğunluğunu 24 (iyirmi dörd) ayı keçməyən dövr üzrə mütəmadi şəkildə yoxlayır;

6.71.3 Müfəttiş yoxlaması zamanı aşkarlanan bütün nöqsanları həmin təşkilata yazılı

formada təqdim edir;

6.71.4 Aşağıdakı nöqsanları aşkar etdikdə, bu nöqsanları I dərəcəli nöqsanlar kimi təsnif edir:

1. imtahan prosesinə dair tələblərlə ciddi uyğunsuzluq;
2. iki yazılı müraciətdən sonra iş vaxtı ərzində Agentliyin səlahiyyətli şəxslərinə həmin təşkilatın obyektlərinə giriş imkanının verilməməsi;
3. məsul rəhbərin olmaması;
4. təlim prosesinə dair tələblərə ciddi təsir edə biləcək uyğunsuzluq;

6.71.5 Bu Qaydanın 6.71.4-cü yarımbəndində qeyd olunan nöqsanlardan fərqli nöqsan aşkar etdikdə bu nöqsanları II dərəcəli nöqsanlar kimi təsnif edir;

6.71.6 Təşkilata yazılı bildiriş göndərildikdən sonra 3 (üç) gün müddətində istənilən I dərəcəli nöqsanın aradan qaldırılması başa çatmadıqda, təşkilatın təsdiq sertifikatını tamamilə və ya qismən ləğv edir, hüquqi qüvvəsini dayandırır və ya məhdudlaşdırır;

6.71.7 II dərəcəli nöqsanın aradan qaldırılması Agentlik tərəfindən müəyyən edilmiş müddətdə başa çatmadıqda, həmin təşkilatın təsdiq sertifikatını tamamilə və ya qismən ləğv edir, hüquqi qüvvəsini dayandırır və ya məhdudlaşdırır;

6.71.8 Məlumatların qeydiyyat sisteminə aşağıdakıları ən azı 4 (dörd) il müddətinə saxlanmaq şərtilə daxil edir:

1. ərizələri;
2. hər hansı dəyişiklik daxil olmaqla, təşkilatın təsdiqlənməsi haqqında sertifikat;
3. müfəttiş yoxlamalarının aparılmalı olduğu və aparıldığı tarixləri göstərən audit proqramının surəti;
4. bütün müfəttiş yoxlamalarına dair hesabatlar daxil olmaqla, nəzarətə aid qeydlər;
5. bütün müvafiq yazışmaların surətləri;
6. hər hansı istisna və ya müvafiq tədbirlər haqqında məlumatlar;
7. təşkilatın təlimatı və ona edilən dəyişikliklər.

7 AERONAVİQASİYA ÜZRƏ NƏZARƏTİN HƏYATA KEÇİRİLMƏSİ

7.1 Agentlik aeronaviqasiya üzrə fəaliyyət göstərən xidmət təminatçılarını sertifikatlaşdırır, onların fəaliyyətinə nəzarəti həyata keçirir və bu sahədə boşluqları və nöqsanları aşkar etdikdə, onların aradan qaldırılması və gələcəkdə baş verməməsi üçün müvafiq tədbirlərin görülməsi məqsədilə xidmət təminatçılarına icrası uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan tapşırıq və göstərişlər verir.

7.2 Agentlik xidmət təminatçılarının xidmətlərinin təhlükəsiz həyata keçirilməsi üzrə müfəttiş yoxlamaları aparır və onların fəaliyyətinin həmin tələblərə uyğunluğunu təsdiq edir.

7.3 Agentlik tərəfindən aeronaviqasiya xidmətlərinin sertifikatlaşdırılması, bu sahədə xidmət təminatçılarının fəaliyyətinə nəzarət və müvafiq tədbirlərin görülməsi aşağıdakı tələblər çərçivəsində həyata keçirilir:

7.3.1 Xidmət təminatçılarının fəaliyyətinə dair tələblərə riayət edilməsi;

7.3.2 Xidmət təminatçılarının uçuşların təhlükəsizliyinə nəzarət mexanizmləri və onların

nəticələri haqqında məlumatlılığı;

7.3.3 Xidmət təminatçıları tərəfindən uçuşların təhlükəsizliyi üçün zəruri olan məlumatların səlahiyyətli orqanlar arasında mübadiləsinin səmərəli həyata keçirilməsi.

7.4 Agentlik xidmət təminatçılarının uçuşların təhlükəsizliyi sahəsində fəaliyyət göstərmələri və öz məsuliyyətlərini dəqiq bilmələri üçün onları müvafiq normativ hüquqi aktlar, beynəlxalq standartlar, qaydalar, texniki təlimatlar və digər aidiyyəti sənədlərlə təmin edir.

7.5 Xidmət təminatçıları uyğunluğun təmin edilməsi məqsədilə məqbul hesab edilən uyğunluq vasitələrini müəyyən edərək daim təkmilləşdirir. Məqbul hesab edilən uyğunluq vasitələrinin tətbiqinin mümkünlüyü Agentlik tərəfindən təsdiq olunduqda, həmin vasitələr xidmət təminatçıları tərəfindən tətbiq edilir.

7.6 Agentlik müfəttişlər və onların nəzarətində olan xidmət təminatçıları tərəfindən istifadə edilən məqbul hesab olunan uyğunluq vasitələrinin mütəmadi yoxlanılması üçün elektron sistem formalaşdırır.

7.7 Agentlik xidmət təminatçıları tərəfindən təklif olunan məqbul uyğunluq vasitələrini təqdim edilən sənədlərə, eləcə də onların fəaliyyətinin yoxlanılmasına əsasən qiymətləndirir və həmin vasitələrin tətbiqinin mümkünlüyünü müəyyən etdikdə, bu barədə xidmət təminatçılarını və müvafiq təşkilatları məlumatlandırır.

7.8 Agentlik öz fəaliyyəti ilə əlaqədar məqbul hesab edilən uyğunluq vasitələrinin xidmət təminatçıları üçün açıq olmasını təmin edir.

7.9 Xidmət təminatçıları uçuşların təhlükəsizliyinə risk yarada biləcək hər hansı hal ilə bağlı Agentliyi məlumatlandırır, Agentlik isə uçuşların təhlükəsizliyinə dair məlumatların toplanmasını, təhlilini və yayılmasını təmin edən sistem təsis edərək tətbiq edir.

7.10 Bu Qaydanın 7.9-cu bəndində qeyd edilən məlumatlar əsasında Agentlik uçuşların təhlükəsizliyinə risk yarada biləcək hər hansı vəziyyətin həlli və ya aradan qaldırılması üçün uçuşların təhlükəsizliyinə dair direktivlərin verilməsi də daxil olmaqla, müvafiq tədbirlər görür və bu tədbirlər haqqında təxirəsalınmadan xidmət təminatçılarını məlumatlandırır.

7.11 Agentlik sistemin səmərəli işləməsinə maneə olan hallarda problemli şərtlərin müəyyən edilməsi, hər hansı təsirə məruz qalmış bu sistemin bərpası, tələb olunan tədbirlərin görülməsi üçün zəruri göstərişləri verir, zaman çərçivəsini müəyyən edir və xidmət təminatçıları tərəfindən bu göstərişlərə riayət edilməsinə nəzarəti həyata keçirir.

7.12 Agentlik aeronaviqasiya xidməti üzrə nəzarətin həyata keçirilməsi üçün aşağıdakılardan təşkil olunmuş müvafiq idarəetmə sistemi yaradır:

7.12.1 Sertifikatlaşdırmanı, nəzarəti və müvafiq tədbirlərin görülməsini müəyyən edən, səlahiyyətli orqanın əsas işçi sənədləri hesab edilən və beynəlxalq standartların tələblərinə cavab verən qayda, prosedur və təlimatlar;

7.12.2 Bu Qayda ilə müəyyən edilmiş qaydada fəaliyyət göstərən, uçuşların təhlükəsizliyinin təmin edilməsində zəruri bilik, bacarıq və təcrübəyə malik olan, ilkin və ixtisasartırmaya dair təlimlər keçmiş və məsul müfəttişlər daxil olmaqla, yetərli sayda əməkdaşlar, həmçinin onların vəzifələrinin yerinə yetirilməsi üçün zəruri avadanlıq və şərait;

7.12.3 Daxili audit prosesini və risklərin qiymətləndirilməsini özündə ehtiva edən, həmçinin yoxlama nəticəsində aşkar edilən pozuntulara dair müvafiq təşkilatların rəylərini və

nöqsanların aradan qaldırılması üzrə tədbirləri təhlil etməyə imkan verən prosedurlar;

7.12.4 İdarəetmə sisteminə daxil olan hər bir yoxlama istiqaməti üzrə müvafiq vəzifələrin idarə edilməsi üçün ümumi məsuliyyət daşıyan şəxs və ya şəxslər qrupu;

7.12.5 Xidmət təminatçılarının sertifikatlaşdırılması və onlara nəzarət çərçivəsində həyata keçirilən audit nəticəsində aşkar edilmiş pozuntu və boşluqlar, görülməli olan tədbirlər haqqında zəruri məlumatların qarşılıqlı mübadiləsi proseduru.

7.13 Agentlik aeronaviqasiya xidməti üzrə idarəetmə sisteminin səmərəli tətbiqini, müvafiq tələblərə uyğunluğunu və hər hansı dəyişikliyi müəyyən etməyə imkan verən xüsusi qeydiyyat sistemini yaradır.

7.14 Agentlik aşağıdakıları özündə ehtiva edən məlumat-qeydiyyat sistemi yaradır:

7.14.1 İdarəetmə sisteminin sənədləşdirilmiş istiqamətləri və prosedurları;

7.14.2 Aeronaviqasiya xidməti sahəsində təlim, ixtisasartırma və personalın səlahiyyətləri;

7.14.3 Vəzifələrin dəqiq müəyyənləşdirilməsini nəzərdə tutan vəzifə təlimatları;

7.14.4 Sertifikatlaşdırma prosesini müəyyən edən prosedurlar;

7.14.5 Aeronaviqasiya xidməti və metereoloji xidmət təminatçılarının təyin edilməsi;

7.14.6 Nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər;

7.14.7 Uçuşların təhlükəsizlik vəziyyətinə və yenidən yoxlamalara dair məlumatlar və öhdəlik bəyanatları;

7.14.8 Xidmət təminatçılarına verilən sertifikatların və onlara əlavələrin surətləri.

7.15 Agentlik tərəfindən yaradılan məlumat-qeydiyyat sistemi həmçinin xidmət təminatçılarının müvafiq sertifikatlaşdırma tələblərinə uyğunluğunu, audit hesabatlarını, aşkar olunan boşluq və nöqsanları, nöqsanların aradan qaldırılması üzrə görülən tədbirləri, nöqsanların aradan qaldırılması üçün müəyyən edilən müddətləri, xidmət təminatçılarına verilən sertifikatların rekvizitlərini və uçuşların təhlükəsizliyinə dair digər zəruri məlumatları özündə əks etdirir.

7.16 Mülki aviasiya sahəsində məlumatların vahid qeydiyyat sistemində olan məlumatlar sertifikatlar qüvvədən düşdükdən və ya digər şəkildə etibarlılığını itirdikdən sonra 5 (beş) il müddətində saxlanılır.

7.17 Agentlik xidmət təminatçıları tərəfindən həyata keçirilən fəaliyyəti mütəmadi olaraq yoxlayır və monitorinqin nəticələrini risklərin qiymətləndirilməsi üçün istifadə edir.

7.18 Monitorinq zamanı Agentlik xidmətin müvafiq tələblərə uyğunluğunu yoxlayır və bu tələblərə cavab verən xidmət təminatçısına sertifikat verir.

7.19 Bu Qaydanın 7.18-ci bəndində qeyd edilən sertifikat 3 (üç) il müddətinə verilir. Xidmət təminatçısının göstərdiyi xidmətlərin siyahısı sertifikata qoşulmuş əlavə ilə müəyyən edilir.

7.20 Xidmət təminatçılarında həyata keçirilən yoxlamalar zamanı aşkar edilmiş I dərəcəli nöqsanlar aradan qaldırılmadıqda xidmət təminatçısına sertifikat verilmir.

7.21 I dərəcəli nöqsanlar istisna olmaqla, digər nöqsanlar xidmət təminatçısının özü tərəfindən qiymətləndirilərək Agentliyin müəyyən etdiyi nöqsanların aradan qaldırılması üzrə tədbirlərin həyata keçirilməsi ilə aradan qaldırılır və Agentlik tərəfindən sertifikat verilir.

7.22 Audit, təkrar yoxlama, müfəttiş yoxlamalarından ibarət monitorinq və onun nəticələri sənədləşdirilir, boşluq və nöqsanların aradan qaldırılması üçün xidmət təminatçıları tərəfindən görülməli olan tədbirlər haqqında onlara məlumat verilir.

7.23 Agentlik aeronaviqasiya xidmətləri auditlərinin həyata keçirilməsi zamanı aşağıdakı hüquqlara malikdir:

7.23.1 Xidmət təminatçılarından yoxlamanın predmeti ilə əlaqədar bütün zəruri məlumatları tələb etmək və almaq;

7.23.2 Xidmət təminatçılarının idarəetmə üzrə personalından və ya digər səlahiyyətli nümayəndəsindən hər hansı faktın, sənədin, prosedurun və yaxud yoxlamanın predmeti olan digər məlumatın şifahi izahat şəklində verilməsini tələb etmək;

7.23.3 Xidmət təminatçılarına məxsus avadanlığa baxış keçirmək, istismarın həyata keçirildiyi ərazilər də daxil olmaqla, əraziyə və nəqliyyat vasitələrinə daxil olmaq;

7.23.4 Məlumatın qorunub saxlanıldığı hər hansı vasitədən asılı olmayaraq, xidmət təminatçıları tərəfindən saxlanılan və yalnız onların özləri üçün açıq olan hər hansı sənəddən, audio-vizual və video müşahidə sistemlərindən çıxarışlar etmək, surət çıxarmaq və onları təhlil etmək;

7.23.5 Xidmət təminatçılarının fəaliyyətini auditlər, qiymətləndirmələr, araşdırmalar və müfəttiş yoxlamaları vasitəsilə yoxlamaq;

7.23.6 Xidmət təminatçılarının müqavilə əsasında nəzarət etdiyi təşkilatları yoxlamaq.

7.24 Yoxlamalar xidmət təminatçılarının, o cümlədən üçüncü şəxslərin qanunla müəyyən olunmuş hüquq və mənafelərinə və öz səlahiyyətlərinin səmərəli icrasına xələl gətirmədən proporsionallıq prinsipinə riayət edilməklə həyata keçirilir.

7.25 Bu Qaydanın 7.23-cü bəndi ilə müəyyən edilmiş səlahiyyətləri yoxlamaları aparan müfəttişlər həyata keçirirlər.

7.26 Agentlik sertifikatlaşdırdığı xidmət təminatçıları barəsində zəruri tədbirlər görür, o cümlədən bəyanatlar, müvafiq tələblərə uyğunlaşdırma haqqında göstərişlər verir.

7.27 Agentlik tərəfindən auditlər aşağıdakı tələblərə əməl edilməklə keçirilməlidir:

7.27.1 Xİdmət təminatçılarına tətbiq edilən tələblərə uyğunluq barədə sübutların təmin edilməsi nəzərdə tutulmalıdır;

7.27.2 Müstəqil, qərəzsiz və xidmət təminatçılarının həyata keçirdiyi daxili auditlərdən ayrı aparılmalı nöqsanların aradan qaldrılması üzrə görülən tədbirlərin Agentlik tərəfindən müəyyən edilən tələblərə uyğunluğu müəyyən edilməlidir.

7.28 Agentlik müvafiq sübutlar əsasında xidmət təminatçıları tərəfindən müvafiq tələblərə riayət edilməsini mütəmadi olaraq yoxlayır.

7.29 Agentlik xidmət təminatçılarının fəaliyyət xüsusiyyətlərini, onların fəaliyyətinin mürəkkəbliyini, əvvəlki sertifikatlaşdırmanın və nəzarətin nəticələrini nəzərə alaraq və riskləri qiymətləndirərək, İllik Nəzarət Proqramını təsdiq edir. İllik Nəzarət Proqramında uçuşların təhlükəsizliyinə potensial təhlükə yarada biləcək problemlərin mövcud olduğu

sahələr, Agentliyin nəzarəti altında olan xidmət təminatçıları haqqında məlumatlar, xidmət təminatçılarının personalının uyğunluğu üçün istifadə edilən vasitələr, auditin xidmət təminatçıları tərəfindən göstərilən xidmətlərin və aparılan əməliyyatların nəticəsi olaraq yarana bilən riskin dərəcələrinə uyğun aparılması və həyata keçirilmə müddətləri öz əksini tapır.

7.30 Xidmət təminatçılarının fəaliyyətində uçuşların təhlükəsizliyinə risk yarada biləcək amillər azaldıqda, nəzarət mütəmadi şəkildə aparılmır.

7.31 İllik Nəzarət Proqramına əsasən aparılacaq yoxlamaların fasiləsizliyi və həyata keçiriləcəyi vaxt, yoxlanılacaq xidmətlərin dairəsi, məkanları, fəaliyyət növləri müəyyən olunur.

7.32 Yoxlama nəticəsində aşkarlanmış boşluq və nöqsanların qeyd edildiyi audit hesabatı aidiyyəti xidmət təminatçısına göndərilir.

7.33 Xidmət təminatçısının strukturunda hər hansı dəyişikliyin edilməsi barədə məlumat alan Agentlik belə dəyişikliyin yoxlanılmasını həyata keçirir.

7.34 Müvafiq məlumatların verilməsi əsasında Agentlik xidmət təminatçılarının strukturunda baş vermiş dəyişikliklərin yoxlanılmasına dair qərar qəbul edir. Agentlik bu qərarın verilməsi üçün zəruri olan digər məlumatların təqdim olunmasını xidmət təminatçılarından tələb edir..

7.35 Agentlik xidmət təminatçısının strukturunda baş vermiş hər hansı dəyişikliklə bağlı uçuşların təhlükəsizliyi üçün yarana biləcək riski qiymətləndirərək təkrar yoxlamanın zəruriliyini müəyyən edir və bu yoxlamanı həyata keçirir.

7.36 Agentlik təkrar yoxlama keçirilməsi haqqında əsaslandırılmış qərarı barədə xidmət təminatçısını məlumatlandırır.

7.37 Xidmət təminatçısının strukturunda baş vermiş hər hansı dəyişikliyi yoxlayarkən, Agentlik belə dəyişikliyin əsaslı olmasını, o cümlədən xidmət təminatçısının digər səlahiyyətli və aidiyyəti orqanlarla əməkdaşlığının mümkünlüyünü xüsusilə araşdırır.

7.38 Qiymətləndirmədən sonra Agentlik xidmət təminatçısının strukturunda baş vermiş hər hansı dəyişikliyin əsasının məqbul olması haqqında qərar qəbul edir və bu barədə onu məlumatlandırır.

7.39 Bu Qaydaların 7-ci hissəsində nəzərdə tutulmuş yoxlamalarla (bu Qaydaların 7-ci hissəsinin mətnində "yoxlamalar", həmin hissənin məqsədləri üçün tətbiq edilən bütün növ yoxlamaları (auditlər istisna olmaqla) özündə ehtiva edir), bağlı Agentlik tərəfindən planlaşdırılmış yoxlamalar haqqında məlumatların göndərilməsi (növbədənkənar (plandankənar) yoxlamalar istisna olmaqla), yoxlama nəticələri haqqında hesabat(lar)ın və islahedici tədbirlər plan(lar)ının (bu Qaydaların məqsədləri üçün "islahedici tədbirlər planı" dedikdə Agentlik tərəfindən bu hissənin 1 saylı Əlavəsində nümunə olaraq göstərilmiş və Agentlik tərəfindən təsdiqlənmiş yoxlamalar nəticəsində aşkarlanan nöqsanları aradan qaldırılması üzrə həyata keçiriləcək tədbirləri təsvir edən sənəd) Agentlik tərəfindən xidmət təminatçılarına və xidmət təminatçıları tərəfindən təqdim və qəbul edilməsi qaydası aşağıda qeyd edilən şəkildə həyata keçirilməlidir:

7.39.1 Planlı (növbəli) yoxlamaların keçirilməsinə dair illik plan Agentlik tərəfindən xidmət təminatçısına ilin əvvəlində göndərilməlidir.

7.39.2 Agentlik tərəfindən xidmət təminatçısına planlı yoxlamanın keçirilməsinə dair yazılı xəbərdarlıq, yoxlamanın tarixi, yoxlamanın keçiriləcəyi məkan, yoxlama vərəqəsi ilə bərabər (sualların göstərilməsi şərti ilə) yoxlamanın keçirilməsindən əvvəl 10 gündən gec olmayaraq göndərilməlidir (bu qayda plandankənar (növbədənkənar)

yoxlamalara tətbiq olunmur).

7.39.3 Yoxlamanın son günü yoxlamanın nəticələrinin təqdim olunması üçün yekun iclas keçirilir və yoxlamada iştirak edən məsul şəxslər həmin iclasda yoxlamaların nəticələri ilə tanış olur. Yoxlama müddəti bitdikdən sonra yoxlama nəticələri Agentlik tərəfindən aktlaşdırılır və həmin sənəd yoxlamada iştirak edən müfəttişlər və xidmət təminatçısının nümayəndələri tərəfindən imzalanır. Xidmət təminatçısının nümayəndələri yoxlama aktını imza etməkdən imtina edərsə, xidmət təminatçılarının etiraz səbəbləri üzrə qeydlər həmin aktda öz əksini tapmalıdır.

7.39.4 Agentlik tərəfindən yoxlamanın nəticələri haqqında hesabat(lar) yoxlamanın son günündən 15 gün ərzində xidmət təminatçısına göndərilməlidir.

7.39.5 Xidmət təminatçısının hesabatlarla bağlı etirazları olduğu halda onlar, həmin etirazları yazılı şəkildə Agentliyə hesabatı aldıqları tarixdən 10 gündən gec olmayaraq göndərməlidir, Agentlik etirazlarla bağlı cavab məktubunu eyni müddətdə Xidmət təminatçısına göndərməlidir.

7.39.6 Xidmət təminatçıları yoxlama nəticələri haqqında hesabat(lar)ın son versiyanı qəbul etdikdən sonra islahedici tədbirlər plan(lar)ını Agentliyə 30 gündən gec olmayaraq göndərməlidir.

7.39.7 İslahedici tədbirlər planı Agentlik tərəfindən qəbul edilmədikdə, Agentlik bu haqda xidmət təminatçısını 10 gündən gec olmayaraq xəbərdar etməlidir. Xidmət təminatçısı 15 gün ərzində qəbul edilməmiş islahedici tədbirlər planında qeyd edilən nöqsanları nəzərə alaraq islahedici tədbirlər planını yenidən tərtib edərək Agentliyə göndərməlidir.

7.39.8 Agentlik islahedici tədbirlər planını qəbul etdikdə, bu haqda xidmət təminatçısını, 15 gündən gec olmayaraq yazılı şəkildə xəbərdar etməli və xidmət təminatçısı eyni müddət ərzində üzərində düzəlişlər edilmiş islahedici tədbir planını Agentliyə göndərməlidir.

7.39.9 Bu Qaydaların 7.39-ci bəndində qeyd edilən hərəkətlərlə bağlı məlumatların mübadiləsi (onların təqdim/qəbul edilməsi) tarixi məlumatların yazılı şəkildə “Q-Pulse” sisteminə yüklənməsindən və/və ya onların elektron məktub (e-mail) və/və ya onların poçt vasitəsilə çatdırılması tarixindən (ən tez hansı baş verərsə) hesablanır.

7.39.10 İslahedici tədbirlər planın icrasına nəzarətin həyata keçirilməsi, Agentlik tərəfindən növbəli (planlı) və növbədənkənar yoxlamaların çərçivəsində həyata keçirilir və həmin yoxlamalar üzrə prosesə bu Qaydaların 7 hissəsində göstərilən qaydalar tətbiq olunur.

7.39.11 Bu Qaydaların 7 hissəsində göstərilən müddətlər aşkarlanan nöqsanların (qüsurların, pozuntuların hər-hansı digər uyğunsuzluqların) təhlükə səviyyəsinin ağırlığı, nöqsanların (qüsurların, pozuntuların hər-hansı digər uyğunsuzluqların) aradan qaldırılmasının təbiəti və ictimai maraqların qorunması məqsədilə xidmət təminatçılarının yazılı və əsaslandırılmış xahişi və ya etirazı, habelə məsələnin təcililiyi nəzərə alınaraq Agentlik tərəfindən Xidmət təminatçısına əvvəlcədən xəbərdarlıq verməklə dəyişdirilə bilər. Yuxarıda göstərilən hərəkətlərdə qeyd edilən məlumatlar barəsində müddətlərin dəyişdirilməsi barəsində yazılı tələb (xəbərdarlıq, ərizə və digər müraciət) bu hissədə göstərilən hərəkətlərin çərçivəsində nəzərdə tutulmadığı halda, göstərilən müddətlər üzrə yazılı dəyişiklik tələbi, müddəti müəyyənləşdirən sənədin qəbul edilməsindən sonra 10 gündən gec olmayaraq

edilməlidir.

7.40 Agentlik tərəfindən islahedici tədbirlər planının qəbul edilməməsi aşağıda göstərilən səbəblərdən biri mövcud olduqda baş verir:

7.40.1 İslahedici tədbirlər planında göstərilən tədbirlər yoxlama zamanı aşkar olunmuş nöqsanların (qüsurların, pozuntuların hər-hansı digər uyğunsuzluqların) aradan qaldırılması üçün əhəmiyyət kəsb etmədikdə;

7.40.2 İslahedici tədbirlər planında göstərilən müddətlərin yoxlama zamanı aşkar olunmuş nöqsanların (qüsurların, pozuntuların hər-hansı digər uyğunsuzluqların) aradan qaldırılması üçün həddindən artıq uzun olması hallarında;

7.40.3 Mahiyyət baxımından islahedici tədbirlər planında yoxlama zamanı aşkar olunmuş nöqsanların (qüsurların, pozuntuların hər-hansı digər uyğunsuzluqların) aradan qaldırılması məqsədləri baxımından yanlış addımların atılması nəzərdə tutulduqda.

7.41 İslahedici tədbirlər planı Agentlik tərəfindən qəbul edilmədikdə, bu cür qərarın alınması səbəbləri Agenlik tərəfindən xidmət təminatçısına aydın şəkildə izah edilməlidir.

7.42 Agentlik aeronaviqasiya üzrə həyata keçirilən yoxlamaların nəticəsində aşkar olunmuş nöqsanları təhlil edir və uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə risk yarada biləcək uyğunsuzluqların aradan qaldırılması üçün xidmət təminatçısına qarşı müvafiq tədbirlər görür.

7.43 Uçuşların təhlükəsizliyinin təmin edilməsinə ciddi təsir edə biləcək təhlükə müəyyən edilmədikdə, Agentlik xidmət təminatçısı tərəfindən nöqsanların aradan qaldırılması üzrə fəaliyyətin davam etdirilməsinə icazə verir.

7.44 Uçuşların təhlükəsizliyi üçün riskin olmadığı və ya çox aşağı səviyyədə olduğu hallarda Agentlik müəyyən nöqsanların aradan qaldırılması üzrə tədbirlərin görülməsi şərtilə, xidmət təminatçısı tərəfindən fəaliyyətin davam etdirilməsinə icazə verə bilər.

7.45 Aeronaviqasiya üzrə xidmət təminatçılarında I dərəcəli nöqsanlar aşağıdakı hallar mövcud olduqda müəyyən edilir:

7.45.1 Mövcud qaydalara, o cümlədən tətbiq edilməli olan standartlara əhəmiyyətli uyğunsuzluq;

7.45.2 Xidmət təminatçılarının Agentlik tərəfindən təsdiq edilmiş prosedurlarına və təlimatlarına uyğunsuzluq;

7.45.3 Sertifikatlaşdırma qaydalarına uyğunsuzluq;

7.45.4 Təyin edilmiş vəzifəyə uyğunsuzluq;

7.45.5 Uçuşların təhlükəsizliyinə risk yarada biləcək xidmətlərin göstərilməsi və ya prosedurların tətbiqi;

7.45.6 Xidmət təminatçıları tərəfindən saxta sənədlər təqdim edilməsi yolu ilə sertifikatların əldə edilməsi;

7.45.7 Xidmət təminatçıları tərəfindən sertifikatlarından sui-istifadəyə və ya dələduzluğa yol

verilməsi;

7.45.8 Xidmət təminatçısında məsul şəxsin olmaması;

7.45.9 Uçuşların təhlükəsizliyinin təmin edilməsinə təhdid yaradan və ya xidmət təminatçısının fəaliyyətinin davam etdirilməsinə maneə olan, uçuşların təhlükəsizliyini təmin etmək qabiliyyətini şübhə altına alan digər vəziyyət.

7.46 Aeronaviqasiya üzrə xidmət təminatçılarında II dərəcəli nöqsanlar aşağıdakı hallar mövcud olduqda müəyyən edilir:

7.46.1 Müvafiq tələblərə və onların tətbiqinə dair, o cümlədən xidmət təminatçılarının öz prosedur və təlimatları ilə müəyyən edilmiş tələblərə digər uyğunsuzluqlar;

7.46.2 Xidmət təminatçılarının sertifikatları ilə müəyyən edilmiş şərtlərə hər hansı uyğunsuzluq.

7.47 Aeronaviqasiya üzrə xidmət təminatçılarının yoxlanılması zamanı hər iki səviyyəli uyğunsuzluq aşkar edildikdə, Agentlik yazılı şəkildə xidmət təminatçısından nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsini tələb edir.

7.48 Aeronaviqasiya üzrə xidmət təminatçılarının fəaliyyətinin yoxlanılması zamanı aşkar edilən nöqsanların dərəcəsi uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün risklərin qiymətləndirilməsindən asılı olaraq müəyyən edilir və xidmət təminatçısı tərəfindən nöqsanların aradan qaldırılması üçün müvafiq tədbir görülənə qədər qüvvədə qalır.

7.49 I dərəcəli nöqsanlar aşkar edildikdə və uçuşların təhlükəsizliyi üçün risk olmadıqda, Agentlik dərhal müvafiq tədbir görərək, xidmət təminatçısının fəaliyyətinin davam etdirilməsi şərtilə sertifikatla ona verilmiş hüquqları məhdudlaşdırır və ya həmin sertifikatın hüquqi qüvvəsini dayandırır, yaxud ləğv edir.

7.50 II dərəcəli nöqsanlar aşkar edildikdə, Agentlik aşağıdakı tədbirləri görür:

7.50.1 Nöqsanın xarakterindən asılı olaraq, xidmət təminatçısına nöqsanların aradan qaldırılması üzrə müvafiq tədbirlərin görülməsi üçün vaxt verir;

7.50.2 Xidmət təminatçısı tərəfindən təqdim edilən nöqsanların aradan qaldırılması üçün tədbirlər planının tətbiqi üzrə qiymətləndirməni və uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirir.

7.51 II dərəcəli nöqsan aşkar edildikdə, xidmət təminatçısı Agentlik tərəfindən müəyyən edilmiş və ya əlavə olaraq verilmiş zaman çərçivəsində nöqsanların aradan qaldırılması üzrə planı təqdim etmədikdə, aşkar edilən nöqsanın dərəcəsi I səviyyəli kimi müəyyən edilir.

7.52 Aşkar edilən nöqsanlar I və II dərəcəli nöqsanlar kimi müəyyən edilmədikdə, Agentlik xidmət təminatçısında müşahidə apara bilər.

7.53 Mülki aviasiya istismarçıları nöqsanların aradan qaldırılması üzrə tədbirlər planı təqdim etmədiyi, yaxud Agentlik tərəfindən qəbul edilmiş və ya uzadılmış müddət ərzində müvafiq tədbirləri həyata keçirmədiyi təqdirdə, aşkar edilən II dərəcəli nöqsanı I dərəcəli nöqsan kimi təsnif edərək, bu haqda xəbərdarlıq məktubu təqdim edir.

8 MÜLKİ HAVA GƏMİLƏRİNİN UÇUŞ ƏMƏLİYYATLARI ÜZRƏ NƏZARƏTİN HƏYATA KEÇİRİLMƏSİ

8.1 Agentlik hava daşımalarını həyata keçirən şəxslərin fəaliyyətinə nəzarət edir.

8.2 Agentlik nəzarətin səmərəli həyata keçirilməsinin təmin edilməsi üçün müvafiq yoxlamaları aparan müfəttişləri qanunvericilik aktları, müvafiq qaydalar, beynəlxalq standartlar, texniki təlimatlar və digər sənədlərlə təmin edir.

8.3 Agentlik uyğunluğun təmin edilməsi üçün müvafiq uyğunluq vasitələri işləyib hazırlayır. Həmin uyğunluq vasitərlərinin tətbiq qaydalarının tələbləri yerinə yetirilməlidir.

8.4 Bu Qaydanın 8.1-ci bəndində göstərilən tələblərə riayət olunmasını təmin etmək məqsədilə uyğunluğun alternativ təminat vasitələrindən istifadə oluna bilər.

8.5 Agentlik mülki aviasiya sahəsində fəaliyyət göstərən xidmət təminatçıları, mülki hava gəmilərinin istismarçıları, digər təşkilatlar və şəxslər tərəfindən istifadə olunan uyğunluğun alternativ təminat vasitələrinin uyğunluğunun təmin edilməsini mütəmadi olaraq qiymətləndirən sistem yaradır.

8.6 Agentlik təşkilatın təklif etdiyi uyğunluğun bütün alternativ təminat vasitələrini təqdim olunan sənədlərin təhlili və zəruri hesab olunduğu təqdirdə, təşkilatın təftiş edilməsi yolu ilə qiymətləndirir.

8.7 Təşkilat tərəfindən təqdim edilən uyğunluğun alternativ təminat vasitələrinin qəbuledilən olduğu təqdirdə, Agentlik dərhal aşağıdakı tədbirləri görür:

8.7.1 Müraciət edən şəxsi uyğunluğun alternativ təminat vasitələrinin tətbiq edilə biləcəyinə dair məlumatlandırır və lazım gəldikdə, müvafiq olaraq təsdiq sənədində, xüsusi əməliyyat icazəsində və ya şəhadətnamədə düzəliş edir;

8.7.2 Bütün müvafiq sənədlərin surətləri də daxil olmaqla, onların məzmunu barədə təşkilatları xəbərdar edir.

8.8 Agentlik uyğunluğun alternativ təminat vasitələrindən istifadə etdiyi təqdirdə, mülki aviasiya sahəsində fəaliyyət göstərən xidmət təminatçılarına, mülki hava gəmilərinin istismarçılarına, digər təşkilat və şəxslərə sözügedən vasitələri təqdim edir və əsassız gecikməyə yol vermədən aidiyyəti təşkilatları bu barədə məlumatlandırır.

8.9 Agentlik uyğunluğun alternativ təminat vasitələrinin tam təsvirini, o cümlədən bununla əlaqəli olan prosedurlarda edilən hər hansı dəyişiklikləri, habelə qanunvericiliyin tələblərinə riayət olunduğunu nümayiş etdirən qiymətləndirməni təşkilatlara təqdim edir.

8.10 Təşkilat uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün təhdid yarandıqda, o cümlədən aviasiya hadisələrinə dair aldığı hesabatlardan uçuşların təhlükəsizliyinin təmin edilməsi baxımından əhəmiyyət kəsb edən məlumatları dərhal Agentliyə təqdim edir.

8.11 Agentlik uçuşların təhlükəsizliyinə dair məlumatları lazımi şəkildə toplamaq, təhlil etmək və yaymaq üçün elektron və kağız variantda aparılan sistem tətbiq edir.

8.12 Bu Qaydanın 8.10-cu və 8.11-ci bəndlərində göstərilən məlumatları əldə etdikdən sonra Agentlik təhlükəsizlik probleminin həll edilməsi üçün lazımi tədbirlər görür.

8.13 Agentlik hava daşımalarını həyata keçirən şəxslərin və təşkilatların fəaliyyətinə nəzarəti aşağıdakı istiqamətlər üzrə həyata keçirir:

8.13.1 Hava daşımalarını həyata keçirən təşkilatlara sertifikatın, təsdiqin və ya icazənin

verilməsindən əvvəl təşkilata və ya əməliyyat növünə dair tətbiq olunan tələblərə uyğunluğun müəyyən edilməsi;

8.13.2 Sertifikatlaşdırdığı təşkilatlar, xüsusi icazə verdiyi əməliyyatlar və öhdəlik bəyanatları qəbul etdiyi təşkilatlar tərəfindən tətbiq olunan tələblərə davamlı riayət olunmasının təmin edilməsi;

8.13.3 Sadə mühərrikli hava gəmilərinin qeyri-kommersiya mülki aviasiya istismarçısıları tərəfindən tətbiq olunan tələblərə mütəmadi riayət olunmasının təmin edilməsi;

8.13.4 Təşkilat tərəfindən təsbit edilmiş uçuş təhlükəsizliyinə dair müvafiq tədbirlərin həyata keçirilməsi.

8.14 Agentlik tərəfindən yoxlama aşağıdakı şərtlərə əməl olunmaqla həyata keçirilir:

8.14.1 Uçuşun təhlükəsizliyinə cavabdeh olan işçilərə öz funksiyalarını yerinə yetirmək üçün verilən təlimat xüsusi olaraq nəzərdə tutulmuş sənədlərlə təsdiq edilməli;

8.14.2 Əlaqəli şəxslərə və təşkilatlara uçuş təhlükəsizliyinə nəzarət üzrə fəaliyyətin nəticələri təqdim edilməlidir;

8.14.3 Audit yoxlamalarına və təftişlərə, o cümlədən perron təftişlərinə və elan edilməmiş təftişlərə əsaslanmalı;

8.14.4 Gələcək tədbirlərin görülməsi zərurəti yarandıqda, zəruri olan sübutlarla təşkilat təmin edilməlidir.

8.15 Agentlik tərəfindən həyata keçirilən nəzarət yoxlamalarının əhatəsi əvvəl həyata keçirilən nəzarət tədbirlərinin nəticələri və uçuşların təhlükəsizliyinin təmin edilməsinin prioritet istiqamətləri təyin edilməklə həyata keçirilir.

8.16 Agentlik bu Qayda ilə müəyyən edilmiş nəzarət funksiyalarının səmərəli və sistemli yerinə yetirilməsi üçün nəzarət proqramı işləyib hazırlayır və həyata keçirir.

8.17 Agentlik tərəfindən sertifikatlaşdırılmış təşkilatlar üçün nəzarət proqramı təşkilatın xüsusiyyətləri, onun fəaliyyətinin mürəkkəbliyi, əvvəlki sertifikatlaşmanın və nəzarət fəaliyyətinin nəticələri nəzərə alınmaqla işlənib hazırlanmalı və əlaqəli risklərin qiymətləndirilməsinə əsaslanmalıdır.

8.18 Hər nəzarət-planlaşdırma dövrü özündə aşağıdakıları ehtiva etməlidir:

8.18.1 Konkret vəziyyətdən asılı olaraq audit yoxlamaları və təftişlər, o cümlədən perron yoxlamaları və əvvəlcədən elan edilməmiş təftişlər;

8.18.2 Audit yoxlamaları və təftişlər haqqında təşkilatların məlumatlandırılmasını təmin etmək üçün məsul rəhbər və Agentlik tərəfindən çağırılan müşavirələr.

8.19 Agentlik tərəfindən sertifikatlaşdırılmış təşkilatlar üçün 24 (iyirmi dörd) aydan çox olmayan müddətə nəzarət-planlaşdırma dövrü tətbiq edilir.

8.20 Təşkilatın uçuşların təhlükəsizliyinin təmin edilməsinə təhdid yaradan göstəricilərinin aşağı düşdüyünə dair sübutlar olduqda, nəzarət-planlaşdırma dövrü qısaldıla bilər.

8.21 Bu Qaydanın 8.19-cu bəndi ilə müəyyən edilən müddət ərzində aşağıdakı hallarda Agentlik tərəfindən nəzarət planlaşdırma dövrü ən çox 36 (otuz altı) aya qədər uzadıla bilər:

8.21.1 Təşkilat uçuşların təhlükəsizliyinə təhdidlərin səmərəli şəkildə aşkarlanmasını və

bununla bağlı risklərin idarə olunmasını nümayiş etdirdikdə;

8.21.2 Təşkilat onun daxilində baş vermiş bütün dəyişikliklər üzərində tam nəzarətin həyata keçirildiyini fasiləsiz olaraq nümayiş etdirdikdə;

8.21.3 Təşkilatda aparılan yoxlamalar zamanı I dərəcəli nöqsanlar aşkar edilmədikdə;

8.21.4 Nöqsanların aradan qaldırılması üzrə tədbirlər Agentlik tərəfindən təsdiq edilmiş və ya uzadılmış müddət ərzində həyata keçirildikdə.

8.22 Bu Qaydanın 8.21-ci bəndində qeyd edilənlərlə yanaşı, uçuşların təhlükəsizliyinin təminatı və təşkilatın özü tərəfindən normativ tələblərə riayət olunması üzrə fasiləsiz səmərəli hesabat sistemi təşkilat tərəfindən təsis edilərək Agentlik tərəfindən təsdiq edildikdə, nəzarət-planlaşdırma dövrü əlavə olaraq maksimum 48 (qırx səkkiz) aya qədər uzadıla bilər.

8.23 Nəzarət proqramı təşkilatın xüsusiyyətlərinə, onun fəaliyyətinin mürəkkəbliyinə, keçmiş nəzarət fəaliyyətinə dair məlumatlara və həyata keçirilən fəaliyyət növü ilə bağlı risklərin qiymətləndirilməsinə əsaslanmalı və mövcud vəziyyətə uyğun olaraq müəyyən edilən audit yoxlamalarını, təftişləri, perron yoxlamalarını və əvvəlcədən elan edilməmiş təftişləri özündə ehtiva etməlidir.

8.24 Agentlik tərəfindən verilmiş icazəsi, şəhadətnaməsi, yaxud attestasiyası olan şəxslər üçün nəzarət proqramı təftişləri o cümlədən, vəziyyətdən asılı olaraq, elan edilməmiş təftişləri özündə ehtiva etməli və audit yoxlamalarının, təftişlərin və görüşlərin keçirilməli olduğu yer və tarixləri əks etdirən uçot sənədlərini müəyyən etməlidir.

8.25 Hava daşımalarını həyata keçirən təşkilatlara ilkin şəhadətnamənin verilməsinə dair müraciəti aldıqdan sonra Agentlik təşkilatın müvafiq tələblərə uyğunluğunu yoxlayır.

8.26 Təşkilatın bu Qaydanın 8.25-ci bəndi ilə müəyyən edilmiş tələblərə cavab verdiyini təsbit edən səlahiyyətli orqan ona şəhadətnamə verir. Təşkilatın müvafiq fəaliyyətlə məşğul olmaq səlahiyyəti və fəaliyyət dairəsi şəhadətnamələrə əlavə edilən şərtlərə uyğun müəyyən edilir.

8.27 Təşkilat Agentliyin razılığı olmadan müvafiq dəyişiklikləri həyata keçirmək üzrə onların həcmini və ~~onların~~ idarə edilməsini müəyyən edən təlimatı hazırlayaraq, təsdiq edilməsi üçün Agentliyə təqdim edir.

8.28 Təsdiq tələb edən dəyişikliyə dair müraciəti aldıqdan sonra Agentlik həmin dəyişikliyi təsdiq etməzdən əvvəl təşkilatın fəaliyyətinin müvafiq tələblərə uyğunluğunu yoxlayır.

8.29 Agentlik apardığı yoxlamanın nəticəsindən asılı olaraq təşkilatın dəyişiklik müddətində fəaliyyət göstərə biləcəyi şərtləri müəyyən edir.

8.30 Təşkilat bu Qaydanın 8.25-ci bəndi ilə müəyyən edilmiş tələblərə cavab verdikdə, səlahiyyətli orqan həmin dəyişikliyi təsdiq edir.

8.31 Agentlik tərəfindən təsdiq edilməsi tələb olunan dəyişikliklərin təşkilat tərəfindən müvafiq razılıq olmadan həyata keçirildiyi hallarda onun şəhadətnaməsinin hüquqi qüvvəsi dayandırılır, məhdudlaşdırılır və ya ləğv olunur.

8.32 Agentlik tərəfindən təsdiq edilməsi tələb edilməyən dəyişikliklərin tətbiq olunan tələblərə uyğunluğunu yoxlamaq üçün Agentlik təşkilat tərəfindən göndərilən bildirişdə təqdim edilən məlumatları qiymətləndirir.

8.33 Müvafiq tələblərə hər hansı bir uyğunsuzluq aşkar edildikdə, Agentlik:

8.33.1 Bu uyğunsuzluq barədə təşkilatı məlumatlandırır və əlavə olaraq zəruri dəyişikliklərin edilməsini təşkilatdan tələb edir;

8.33.2 Dəyişikliklər I və II dərəcəli nöqsanların aşkar edilməsinə gətirib çıxardıqda, bu Qayda ilə müəyyən olunmuş tədbirləri görür;

8.33.3 Öhdəlik bəyanatı tələb olunan fəaliyyəti həyata keçirən və ya həyata keçirmək istəyən təşkilatdan bəyannamə aldıqda, bu bəyannamədə bütün məlumatların mövcudluğunu yoxlayır və bəyannaməni aldığını təsdiqləyir;

8.33.4 Öhdəlik bəyanatında tələb olunan məlumatlar olmadıqda və ya tətbiq olunan tələblərə uyğun gəlmədiyini göstərən məlumatlar olmadıqda, təşkilatı uyğunsuzluq barədə məlumatlandırır və əlavə məlumat tələb edir, uçuşların təhlükəsizliyinin təmin edilməsi baxımından zəruri olduqda isə Agentlik tərəfindən təşkilatın yoxlanmasını həyata keçirir. Yoxlama nəticəsində uyğunsuzluq təsdiq edildikdə, bu Qayda ilə müəyyən olunmuş tədbirləri həyata keçirir.

8.34 Həyata keçirilən yoxlamalar nəticəsində uçuşların təhlükəsizliyinə risk yaradan amillər aşkar edildikdə, təşkilat tərəfindən nöqsanların aradan qaldırılması üzrə tədbirlər həyata keçirilməlidir.

8.35 Təşkilat tərəfindən "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 944-IIQ nömrəli Qanununun tələblərinə, o cümlədən təşkilatın Agentlik tərəfindən təsdiq edilmiş prosedur qaydalarına, daxili təlimatlara və yaxud təsdiq sənədinin, şəhadətnamənin xüsusi əməliyyat icazəsinin şərtlərinə və ya öhdəlik bəyanatının məzmununa əməl edilməməsi nəticəsində uçuşların təhlükəsizliyinə risk yaradan əhəmiyyətli uyğunsuzluq I dərəcəli nöqsan kimi müəyyən edilir.

8.36 Təşkilat tərəfindən "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 944-IIQ nömrəli Qanununa, o cümlədən Agentlik tərəfindən müəyyən olunmuş prosedurlara, rəhbər tutulan qaydalara və yaxud təsdiq sənədinin, şəhadətnamənin xüsusi əməliyyat icazəsinin şərtlərinə və ya öhdəlik bəyanatının məzmununa, təhlükəsizlik səviyyəsini aşağı sala bilən və uçuş təhlükəsizliyini riskə məruz qoya bilən hər hansı bir uyğunsuzluq II dərəcəli nöqsan kimi təsnif edilir.

8.37 Nəzarətin həyata keçirilməsi zamanı və ya digər vasitələrlə nöqsanlar aşkar olunduqda, Agentlik bu barədə təşkilata yazılı məlumat verir və aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsini tələb edir. Agentlik uçuşların təhlükəsizliyinə təhdid yaradan hava gəmisinin qeydiyyata alındığı dövlətə bu barədə məlumat verir.

8.38 I dərəcəli nöqsanların olduğu halda, Agentlik fəaliyyətin qadağan edilməsi və ya məhdudlaşdırılması üzrə təxirəsalınmaz tədbirlər görür və I dərəcəli nöqsanın məzmunundan asılı olaraq, təşkilat tərəfindən nöqsanların aradan qaldırılması üzrə zəruri tədbirlər görülənədək, şəhadətnamənin, xüsusi əməliyyat icazəsinin və yaxud xüsusi təsdiq

sənədinin geri alınması, yaxud sadalananların bütövlükdə və ya qismən məhdudlaşdırılması və ya hüquqi qüvvəsinin dayandırılması üzrə qərar qəbul edir.

8.39 II dərəcəli nöqsanların aşkarlanması zamanı Agentlik aşağıdakı tədbirləri görür:

8.39.1 Nöqsanın xarakterindən asılı olaraq, təşkilata həmin nöqsanların aradan qaldırılması üzrə tədbirlərin həyata keçirilməsi üçün ilkin olaraq istənilən halda 3 (üç) aydan artıq olmayan müddət verir. Bu müddətin sonunda və nöqsanın xarakterindən asılı olaraq, nöqsanların aradan qaldırılması üzrə tədbirlər planına uyğun olaraq, bu müddəti əlavə 3 (üç) ay müddətinədək uzadır;

8.39.2 Təşkilatın təklif etdiyi nöqsanların aradan qaldırılması üzrə tədbirləri və onların həyata keçirilməsi planını qiymətləndirir və qiymətləndirmə nəticəsində nöqsanların aradan qaldırılması üçün bu tədbirlərin kifayət olması barədə nəticə çıxarılarsa, həmin tədbirlər planını təsdiq edir.

8.40 Təşkilat nöqsanların aradan qaldırılması üzrə tədbirlər planını təqdim etmədiyi və ya Agentlik tərəfindən təsdiq edilmiş və yaxud müəyyən edilmiş müddətdə nöqsanların aradan qaldırılması ilə bağlı tədbirləri həyata keçirmədiyi təqdirdə, nöqsanlar I dərəcəli nöqsan kimi təsnif edilir.

8.41 Agentlik aşkar etdiyi və ya ona bildirilən bütün nöqsanların və tətbiq etdiyi tədbirlərinin, habelə nöqsanların aradan qaldırılması üçün həyata keçirilmiş tədbirlərin nəticələrinin qeydiyyatını aparır.

8.42 Nəzarətin həyata keçirildiyi müddətdə Agentlik verilmiş icazə, şəhadətnamə və ya imtahan verən şəxsə tətbiq olunan tələblərə riayət etmədiyinə dair sübutlar aşkar edərsə, belə halda Agentlik uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görür.

8.43 Nəzarətin həyata keçirildiyi zaman verilmiş icazəyə və şəhadətnaməyə malik olmayan və ya attestasiyadan keçməmiş şəxs tərəfindən tətbiq olunan tələblərə riayət edilmədiyinə dair sübutlar aşkar edilərsə, uyğunsuzluğu aşkar edən Agentlik bu cür uyğunsuzluğun qarşısını almaq məqsədilə müvafiq tədbirləri tətbiq edir.

8.44 Agentlik istismarçı tərəfindən heyətsiz və ya heyətlə icarəyə götürdüyü digər ölkənin hava gəmisinin, davamlı uçuşa yararlıq və hava daşımaları üzrə tələblərə uyğunluğunu təsdiq etdikdən sonra icarə müqaviləsini təsdiqləyir.

8.45 Mülki hava gəmisinin heyətlə birlikdə icarəyə götürülməsinə dair müqavilənin təsdiq edilməsi aşağıdakı hallarda dayandırıla və ya həmin hava gəmisi geri alına bilər:

8.45.1 İcarəçinin və ya icarəyə götürənin mülki aviasiya istismarçısı şəhadətnaməsinin hüquqi quvvəsi dayandırıldıqda və ya şəhadətnamə geri alındıqda;

8.45.2 İcarəçinin fəaliyyətinə qadağa qoyulduqda.

8.46 Mülki hava gəmisinin heyətsiz icarəyə götürülməsinə dair müqavilənin təsdiq edilməsi aşağıdakı hallarda dayandırıla və ya həmin hava gəmisi geri alına bilər:

8.46.1 Hava gəmisinin uçuşa yararlılıq şəhadətnaməsinin hüquqi qüvvəsi dayandırıldıqda və ya şəhadətnamə geri alındıqda;

8.46.2 Hava gəmisinə istismar məhdudiyyətləri tətbiq olunduqda və yaxud nəzarət altında olan bütün mülki aviasiya istismarçısılarına qarşı fəaliyyət qadağası qoyulan dövlətdə qeydiyyatda olduqda.

8.47 Yüksəkriskli kommersiya əməliyyatlarına xüsusi icazənin verilməsinə dair müraciəti aldıqdan sonra Agentlik mülki aviasiya istismarçısının planlaşdırılan bir və ya bir neçə əməliyyatlarla əlaqədar işlənib hazırlanmış və risklərin qiymətləndirilməsinə dair sənədlərini, o cümlədən standart istismar prosedurlarını nəzərdən keçirir.

8.48 Risklərin qiymətləndirilməsi və standart istismar prosedurları uçuşların təhlükəsizliyinin təmin edilməsi baxımından qaneedici olduqda, Agentlik müraciət edən fiziki və ya hüquqi şəxsə icazə verir. İcazə məhdud və ya qeyri-məhdud müddətə verilə bilər. İstismarçının bir və ya bir neçə yüksəkriskli xüsusiləşdirilmiş kommersiya əməliyyatını həyata keçirmək səlahiyyətinə malik olduğu şərtlər icazədə qeyd olunur.

8.49 İstismarçı icazədə dəyişiklik edilməsi ilə bağlı müraciət etdikdə, Agentlik dəyişiklik edilməsi müddətində fəaliyyət göstərə biləcəyi şərtləri müəyyən edir. İcazənin yenilənməsinə dair müraciəti aldıqdan sonra Agentlik mülki aviasiya istismarçısının əvvəlki fəaliyyətini nəzərə alır.

8.50 İstismarçı dəyişiklikləri risklərin qiymətləndirilməsini və standart istismar prosedurlarını təqdim etmədən həyata keçirdikdə, Agentlik mülki aviasiya istismarçısının icazəsinin hüquqi qüvvəsini dayandırır, məhdudlaşdırır və ya ləğv edir geri alır.

8.51 Transsərhəd yüksəkriskli kommersiya əməliyyatına xüsusi icazənin verilməsinə dair müraciəti aldıqdan sonra Agentlik əməliyyatın planlaşdırıldığı yerin səlahiyyətli orqanı ilə əlaqəli formada mülki aviasiya istismarçısının risklərin qiymətləndirilməsinə dair sənədlərini və standart istismar prosedurlarını nəzərdən keçirir. Risklərin qiymətləndirilməsi və standart istismar prosedurları hər iki səlahiyyətli orqanı uçuşların təhlükəsizliyinin təmin edilməsi baxımından qane etdikdə, Agentlik sözügedən icazəni verir.

8.52 İstismarçı tərəfindən müvafiq tələblərin yerinə yetirildiyi müəyyən edildikdə, Agentlik üçüncü ölkədə qeydiyyata alınmış hava gəmisinin, yaxud digər ölkənin mülki aviasiya istismarçısının cəlb olunduğu icarə müqaviləsini təsdiqləyir.

8.53 Hava gəmisinin uçuşa yararlılıq şəhadətnaməsinin hüquqi qüvvəsi dayandırıldıqda və ya şəhadətnamə ləğv edildikdə, hava gəmisinin heyətsiz icarəyə götürülməsinə dair müqavilənin təsdiqlənməsi dayandırılır və ya ləğv edilir.

8.54 Xüsusi icazənin verilməsinə və ya onun dəyişdirilməsinə dair müraciəti aldıqdan sonra Agentlik onu qiymətləndirir və mülki aviasiya istismarçısının fəaliyyətini yoxlayır.

8.55 İstismarçının tətbiq edilən tələblərə riayət etdiyi müəyyən olunduqda, Agentlik kommersiya hava daşımaları üçün müəyyən edilmiş istismar sertifikatlarında və qeyri-kommersiya əməliyyatları və xüsusiləşdirilmiş əməliyyatlar üçün müəyyən edilmiş xüsusi təsdiq siyahısında bu icazələri əks etdirir.

8.56 İstismarçıdan minimal avadanlıq siyahısının və ya həmin siyahıda edilən dəyişikliyin ilkin təsdiqinə dair müraciəti qəbul etdikdən sonra Agentlik mülki aviasiya istismarçısı tərəfindən hazırlanmış və Agentliyə təqdim olunmuş proseduru təsdiq edir.

8.57 Agentlik hava əməliyyatlarının həyata keçirilməsi üçün müvafiq məsafəni və yerli ərazini, aerodromları, o cümlədən ictimai obyektləri və uçuşların təhlükəsizliyinə zəmanətli helikopter əməliyyatlarının həyata keçirilə biləcəyi zonaları müəyyən edir.

8.58 Yuxarıda qeyd olunan təsdiqdən əvvəl Agentlik mülki aviasiya istismarçısının müvafiq hava əməliyyatlarını həyata keçirə bilmək qabiliyyətini yoxlayır.

8.59 Uçuş vaxtının məhdudlaşdırılması məqsədilə Agentlik onun nəzarəti altında olan bütün kommersiya hava nəqliyyatı mülki aviasiya istismarçılarına dair qeyri-müntəzəm uçuş

cədvəllərinin hansının tətbiq olunacağını müəyyənləşdirir və kommersiya hava nəqliyyatı mülki aviasiya istismarçılarının təklif etdiyi uçuş vaxtının müəyyən edilməsi üzrə sxemləri təsdiqləyir.

9 DİGƏR DÖVLƏTDƏ QEYDİYYATDA OLAN İSTİSMARÇI TƏRƏFİNDƏN İSTİSMAR OLUNAN MÜLKİ HAVA GƏMİLƏRİNİN UÇUŞA YARARLILIĞI, İSTİSMARA YARARLILIĞI, UÇUŞ HEYƏTİ VƏ UÇUŞ SƏNƏDLƏRİNİN UYĞUNLUĞU ÜZRƏ NƏZARƏTİN HƏYATA KEÇİRİLMƏSİ

9.1 Agentlik digər dövlətlərdə qeydiyyatda olan istismarçı tərəfindən istismar olunan mülki hava gəmisinin, habelə onların uçuş heyətinin və uçuş sənədlərinin “Digər dövlətlərə mənsub və yerli istismarçılar tərəfindən əməl edilməli olan perron müfəttiş yoxlaması üzrə tələblərə dair Qaydaları”nın tələblərinə uyğunluğunu yoxlayır.

9.2 Bu Qaydanın 9.1-ci bəndində göstərilən tələblərə uyğun olaraq İllik Nəzarət Planına daxil olan perron müfəttiş yoxlamalarının aparılması yolu ilə, Agentlik uçuşların təhlükəsizliyinin qiymətləndirilməsini həyata keçirir.

9.3 İllik Nəzarət Planı istismarçıların sayı və fəaliyyət xüsusiyyətləri, öz aerodromlarında enmə sayı, habelə uçuşların təhlükəsizlik riskləri barədə əvvəlki məlumatları nəzərə alan hesablama metodologiyasına əsaslanmalı və Agentlik tərəfindən hava gəmilərinin təftişinə imkan yaradılmalıdır.

9.4 Agentlik aşağıdakı məlumatlar əsasında perron müfəttiş yoxlamaları üzrə prioritetləri müəyyən edir:

9.4.1 Mövcud məlumatların təhlili əsasında müəyyən edilmiş mülki hava gəmilərinin istismarçıları haqqında məlumatlar;

9.4.2 Mütəmadi perron müfəttiş yoxlamaları vasitəsilə uçuşların təhlükəsizliyi standartlarına riayət olunması üçün təkrar yoxlamaların keçirilməsinin zəruriliyinə dair müfətişin rəyi;

9.4.3 Fəaliyyəti qadağan olunmuş istismarçılar tərəfindən istismar edilən hava gəmiləri haqqında məlumatlar;

9.4.4 Beynəlxalq auditlərin nəticələrinə görə tənzimləyici nəzarəti səmərəli həyata keçirə bilməyən dövlət tərəfindən sertifikatlaşdırılmış istismarçılar haqqında məlumatlar;

9.4.5 Digər dövlərin istismarçısı tərəfindən istifadə olunan, ilk dəfə uçuşlar həyata keçirən, müvafiq olaraq verilmiş icazənin məhdudlaşdırıldığı və ya dayandırıldığı, yaxud geri alındıqdan sonra bərpa edildiyi hava gəmiləri haqqında məlumatlar.

9.5 Perron müfəttiş yoxlamasını həyata keçirən müfəttişlər “Müfəttiş heyətinin peşəkar hazırlığının və onların ixtisasının artırılması Qaydası”na əsasən Agentlik tərəfindən təsdiq edilən təlim təşkilatlarında təlimlər keçirlər.

9.6 Perron müfəttiş yoxlaması müəyyən olunmuş tələblərə uyğunluq baxımından həyata keçirilir. Perron müfəttiş yoxlaması başa çatdıqda, hava gəmisinin komandiri, o olmadığı halda uçuş heyətinin digər üzvü və ya istismarçının nümayəndəsi bu Qaydanın tələblərinə əsasən perron müfəttiş yoxlamasının nəticələri barədə məlumatlandırılır.

9.7 Bu Qayda ilə müəyyən edilmiş tələblərə cavab verməyən hava daşımalarını həyata keçirən hüquqi və fiziki şəxslərin yoxlanılması zamanı aşkar olunan nöqsanlar İKAO-nun

standartları ilə müəyyən edilmiş təsnifata uyğun olaraq I, II və III dərəcəli nöqsanlar kimi təsnif edilir.

9.8 Agentlik I dərəcəli nöqsanlar aşkar etdikdə hava gəmisinin kapitanına və istismarçıya məlumat verir.

9.9 II və III dərəcəli nöqsanlar aşkar edildikdə, Agentlik istismarçıya yazılı məlumat verir, mövcud vəziyyəti düzəltmək üçün görülməli olan tədbirlərin siyahısının tərtib edilərək təsdiq üçün göndərilməsini tələb edir və istismarçı dövlətin səlahiyyətli orqanına məlumat verir.

9.10 III dərəcəli nöqsanları aşkar etdikdə, əlavə olaraq, Agentlik həmin nöqsanın xarakterindən asılı olaraq, hava gəmisinin uçuşuna məhdudiyyət və ya qadağa qoyur və ya uçuşdan əvvəl nöqsanların aradan qaldırılması üzrə təxirəsalınmaz tədbirlərin görülməsini tələb edir.

9.11 Xarici hava gəmilərinin təftişi və nəticələrinə dair məlumatlar təftişdən sonra Agentliyin mülki aviasiya sahəsində məlumatların vahid qeydiyyat sisteminə daxil edilir və 5 (beş) il müddətində qeydiyyat sistemində saxlanılır.

10 MÜLKİ HAVA GƏMİLƏRİNİN, ONLARIN MÜHƏRRİKLƏRİNİN, PƏRLƏRİNİN, HİSSƏLƏRİNİN VƏ QURAŞDIRILMAMIŞ AVADANLIĞIN UÇUŞA YARARLIĞI VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ ÜZRƏ NƏZARƏTİN HƏYATA KEÇİRİLMƏSİ

10.1 Agentlik mülki hava gəmilərinin, onların mühərriklərinin, pərlərinin, hissələrinin və quraşdırılmamış avadanlığının uçuş yararlılığına və ətraf mühitin mühafizəsinə uyğunluğu baxımından sertifikatlaşdırılmasını həyata keçirir.

10.2 Agentlik müəyyən olunmuş tələblərə uyğunluq üzrə dövlət nəzarətini həyata keçirir.

10.3 Dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə Agentlik mülki aviasiya istismarçıları üçün uyğunluğun təminat vasitələrini müəyyən edir və müvafiq təlimatlar, bulletenlər və digər nəşrlər buraxır.

10.4 Agentlik uçuşların təhlükəsizliyinin daha səmərəli təmin edilməsi məqsədilə müəyyən etdiyi dəyişiklikləri mülki aviasiya istismarçıları üçün dərc etdirir.

10.5 Agentlik mülki aviasiya istismarçılarına verdiyi sertifikatların və digər rəsmi sənədlərin qeydiyyat sistemini təşkil edərək qeydiyyata alır.

10.6 Agentlik mülki hava gəmisini layihələndirən dövlətin səlahiyyətli orqanından uçuşa yararlılığa dair öhdəlik bəyanatları aldıqda, həmin bəyanatları mülki hava gəmisinin, onun mühərriklərinin, pərlərinin, hissələrinin, quraşdırılmamış avadanlığının davamlı uçuşa yararlılığına görə məsul olan şəxsə və ya təşkilata ötürür.

10.7 Agentlik mülki hava gəmisinə uçuşa yararlılıq üzrə sertifikat alınması üçün müraciət edən ərizəçinin mülki hava gəmisinin növü üzrə təqdim etdiyi sertifikatı qiymətləndirir.

10.8 Agentlik tərəfindən hava gəmisinin növü üzrə sertifikatın qiymətləndirilməsi aşağıdakı meyarlar üzrə aparılır:

10.8.1 Sertifikatın nömrəsinin yoxlanılması;

10.8.2 Hava gəmisi növünün təyinatının yoxlanılması;

10.8.3 Növ sertifikatının istehsalçı tərəfindən təsdiq edilmiş nüsxəyə uyğunluğunun

yoxlanılması;

10.8.4 Hava gəmisinin müvafiq növü üzrə sertifikasiya bazasının uçuşa yararlılıq standartına uyğunluğunun yoxlanılması;

10.8.5 Əlaqəli növ üzrə sertifikatın baza məlumatının uyğunluğunun yoxlanılması.

10.9 Müəyyən edilmiş tələblərə uyğun olduqda, Agentlik mülki hava gəmisinə uçuş yararlılığı üzrə müvafiq sertifikat verir.

10.10 Agentlik sertfikatlaşdırma üzrə aşağıdakı məlumatları özündə ehtiva edən qeydiyyat sistemi təsis edir:

10.10.1 Sertifikatın alınması üçün təqdim edilən sənədlər;

10.10.2 Uçuşa yararlılığın müəyyən edilməsi üçün təqdim edilən sənədlər;

10.10.3 Hava gəmisinin növü üzrə şəhadətnamənin surəti;

10.10.4 Hava gəmisinin texniki pasportunun surəti.

10.11 Bu Qaydanın 10.11-ci bəndi ilə müəyyən edilən sənədlər 6 (altı) il müddətinə qeydiyyat sistemində saxlanılır.

10.12 Mülki hava gəmisinin növü üzrə sertifikatında müvafiq dəyişiklik edilməsi haqqında müraciət edən şəxsin təqdim etdiyi sənədlər əsasında Agentlik ona verilən uçuş yararlılıq sertifikatının hüquqi qüvvəsinin saxlanılması və ya ləğv edilməsi məsələsinə baxır.

10.13 Mülki hava gəmisinin növü üzrə sertifikatında edilmiş hər hansı dəyişiklik aşağıdakı meyarlar baxımından qiymətləndirilir:

10.13.1 Müraciət edən ərizəçinin müvafiq hüququnun mövcudluğu;

10.13.2 Müraciətin predmetinin uyğunluğunun yoxlanılması;

10.13.3 Hava gəmisinin növü üzrə sertifikatında edilmiş dəyişiklik;

10.13.4 Sertifikatın baza məlumatının yoxlanılması;

10.13.5 Növ üzrə tətbiq olunan sertifikasiya bazasına uyğunluğun müəyyənləşdirilməsi;

10.13.6 Növ layihəsində edilən dəyişikliyə dair zəruri şərtlərin, məhdudiyyətlərin və qadağaların müəyyənləşdirilməsi.

10.14 Agentlik müvafiq tələblərə əməl edildiyini müəyyən etdikdə mülki hava gəmisinə verilmiş uçuş yararlılığı sertifikatına uyğun dəyişikliyi təsdiq edir.

10.15 Agentlik mülki hava gəmisinin növü üzrə sertifikatında edilən hər bir dəyişikliyi qeydiyyat sistemi vasitəsilə qeydiyyata alır.

10.16 Layihələndirən dövlətin mülki aviasiya orqanı tərəfindən müəyyən edilən inzibati prosedurlar təsdiqlənmiş növ üzrə əlavə şəhadətnamələrin verilməsi, qüvvədə saxlanılması, onlarda dəyişiklik edilməsi, hüquqi qüvvəsinin dayandırılması və ləğv olunması zamanı tətbiq edilir.

10.17 Agentlik şəhadətnamə və ya icazənin verilməsini, hüquqi qüvvəsinin itirilməsini, dəyişiklik edilməsini və ya xitam verilməsini əsaslandırmaq üçün uçuş yararlılığına dair şəhadətnamənin alınması üçün müraciət edən şəxsi araşdırır.

10.18 Agentlik aşağıdakı qiymətləndirmə prosedurlarına uyğun müfəttiş yoxlaması həyata keçirir:

10.18.1 Müraciət edən şəxsin uyğunluğunun qiymətləndirilməsi;

10.18.2 Müraciətin predmet uyğunluğunun qiymətləndirilməsi;

10.18.3 Uçuş yararlılığına dair şəhadətnamənin təsnifatının uyğunluğu;

10.18.4 Təqdim edilən sənədlərin yoxlanılması;

10.18.5 Mülki hava gəmisinin müfəttiş yoxlaması;

10.18.6 Uçuş yararlılığı üzrə şəhadətnamənin şərtlərinə uyğunluğun yoxlanılması.

10.19 Agentlik mülki hava gəmisinin uçuş yararlılığına dair sertifikat verir.

10.20 İxracatçı ölkədən gələn və ya istifadədə olmuş hava gəmisi üçün uçuş yararlılığına dair şəhadətnamədən əlavə, Agentlik uçuş yararlılığının yoxlanılmasına dair ilkin sertifikat verir.

10.21 Agentlik aşağıdakı hava gəmiləri üçün uçuş yararlılığına dair sertifikat verir:

10.21.1 Yeni hava gəmisi üçün:

1. tələb olunan sənədlərin təqdim edilməsindən sonra;
2. mülki hava gəmisi təsdiqlənmiş layihəyə uyğun olduqda və təhlükəsiz istismara yararlı olduqda.

10.21.2 İstismarda olan hava gəmisi üçün:

1. mülki hava gəmisinin növü üzrə sertifikat müvafiq olaraq təsdiqlənmiş layihəyə uyğun olduqda;
2. uçuş yararlılığına dair tətbiq olunan öhdəlik bəyanatlarına uyğun olduqda;
3. hava gəmisinin təftiş olunduğu müəyyən edildikdə;
4. tələb olunan sənədlər təqdim edildikdə.

10.22 Agentlik mülki hava gəmisinin növ layihəsinə edilən hər bir dəyişiklik üzrə ayrıca uçuş yararlılığına dair sertifikatın verilməsi, onun hüquqi qüvvəsinin saxlanılması, dayandırılması, müvafiq dəyişiklik edilməsi, hüquqi qüvvəsinə xitam verilməsi proseslərini mülki aviasiya sahəsində məlumatların vahid qeydyyat sistemi vasitəsilə qeydə alır.

10.23 Qeydiyyat sisteminə daxil edilən sənədlər mülki hava gəmilərinin dövlət reyestrindən silindikdən sonra 6 (altı) il müddətində saxlanılır.

10.24 Agentlik mülki hava gəmilərinə səs-küy üzrə sertifikat verir.

10.25 Müvafiq tələblərdən hər hansı birinin yerinə yetirilməməsi sübut edildikdə, Agentlik səs-küy üzrə sertifikatın hüquqi qüvvəsini dayandırır və ya onu ləğv edir.

10.26 Səs-küy üzrə sertifikatın hüquqi qüvvəsinin dayandırılması və ya geri alınması barədə bildiriş təqdim etdikdə, Agentlik həmin sertifikatın dayandırılmasının və ya geri alınmasının

səbəblərini göstərməli və şəhadətnamə sahibini bundan şikayətvermə hüququna malik olduğuna dair məlumatlandırmalıdır.

10.27 Agentlik hər bir səs-küy üzrə sertifikatın–verilməsi, qüvvədə saxlanılması, dəyişiklik edilməsi, hüquqi qüvvəsinin dayandırılması və ya geri alınması prosesinin düzgün şəkildə izlənilməsinə imkan verən qeydiyyat sistemi təsis edir.

10.28 Agentlik müraciət edən şəxsin uyğunluğunu, mülki hava gəmisinin müfəttiş yoxlamasını həyata keçirərək və təqdim edilən sənədləri yoxlayaraq ixrac üçün uçuş yararlılığına dair sertifikat verir.

10.29 Agentlik bu Qaydanın 10-cu hissəsi ilə müəyyən edilən normativ sənədlərin tələblərinə riayət edildiyini müəyyən etdikdə, əsassız gecikməyə yol vermədən ixrac üçün uçuş yararlılığına dair sertifikat verir.

10.30 Aşağıdakı tələblərdən kənaraçıxmalar mövcud olduqda, ixrac üçün uçuş yararlılığına dair sertifikat verilmir:

10.30.1 Montaj standartlarından kənaraçıxmalar;

10.30.2 Uçuş yararlılığına dair standartlardan kənaraçıxmalar;

10.30.3 İxracatçı ölkənin hər hansı xüsusi tələblərinə əməl edilmədiyi aşkarlandıqda;

10.30.4 İcbari modifikasiyalara və təftişlərə dair tələblərə əməl edilmədikdə.

10.31 Agentlik ixrac üçün hər bir uçuş yararlılığına dair sertifikat verilməsi və ya ona dəyişiklik edilməsi prosesini düzgün şəkildə izləməyə imkan verən müvafiq qeydiyyat sistemi təsis edir.

10.32 Agentlik uçuşa icazənin verilməsini və ya verilmiş belə icazənin geri alınmasını həyata keçirir.

10.33 Agentlik aşağıdakı tələblərə əməl olunduqda, mülki hava gəmisinin uçuşuna icazə verir:

10.33.1 Uçuş şərtləri təsdiq olunduqda;

10.33.2 Təftişlər də daxil olmaqla, özünün apardığı araşdırmalar və yaxud müraciət edən şəxslə razılaşdırılmış prosedurlar yolu ilə hava gəmisinin uçuşdan əvvəl layihəyə uyğunluğunu müəyyən etdikdə.

10.34 Uçuşa icazənin verilməsi üçün icazədə müəyyən edilən şərtlərdən hər hansı birinə riayət edilməməsinə dair sübutlar olduqda, Agentlik həmin uçuşa icazənin hüquqi qüvvəsinə xitam verir.

10.35 Uçuşa icazənin hüquqi qüvvəsinə xitam verilməsi barədə qərar qəbul edildikdə, Agentlik həmin qərarın əsaslarını göstərərək, bu barədə icazənin sahibini məlumatlandırır.

11 HAVA GƏMİLƏRİNİN UÇUŞA YARARLILIĞININ SAXLANILMASI VƏ UÇUŞA YARARLILIĞIN SAXLANILMASINI TƏMİN EDƏN TƏŞKİLATLARIN, HAVA GƏMİLƏRİNƏ TEXNİKİ XİDMƏT GÖSTƏRƏN TƏŞKİLATLARIN FƏALİYYƏTİ ÜZRƏ YOXLAMALARIN HƏYATA KEÇİRİLMƏSİ

11.1 Agentlik hava gəmilərinin uçuşa yararlılığının saxlanılması və uçuşa yararlığın saxlanılmasını təmin edən təşkilatların, hava gəmilərinə texniki xidmət göstərən təşkilatların fəaliyyəti üzərində nəzarəti həyata keçirir.

11.2 Agentlik nəzarət baxımından aşağıdakıları həyata keçirir:

11.2.1 Hava gəmilərinə texniki xidmət proqramını və onda edilən dəyişiklikləri təsdiq edir;

11.2.2 Hava gəmilərinin uçuşa yararlılığını idarə edən təşkilat tərəfindən hava gəmisinə texniki xidmət proqramında dəyişiklik edilməsi prosedurunu təsdiq edir;

11.2.3 Dövlət qeydiyyatına alınmış hava gəmilərinin uçuşa yararlılığı statusuna nəzarət etmək məqsədilə uçuşların təhlükəsizliyi ilə bağlı yarana biləcək riskləri nəzərə alaraq, uçuşa yararlılığın əsas risk elementləri üzrə yoxlamaları özündə ehtiva edən hava gəmilərinin uçuşa yararlılığının saxlanılması üzrə monitorinq proqramını təsdiq edir və həyata keçirir;

11.2.4 Hava gəmilərinin uçuşa yararlılığının saxlanılması üzrə monitorinq proqramına əsasən həyata keçirilən yoxlamalar nəticəsində nöqsanlar müəyyən edildikdə, həmin nöqsanları təsdiq etdiyi müvafiq prosedur qaydalarına uyğun təhlil edir və məsul şəxs kimi müəyyən edilmiş şəxslərə göndərir;

11.2.5 Hava gəmisinin texniki qeydiyyat sistemini müvafiq tələblərə uyğunluq baxımından yoxlayaraq təsdiq edir;

11.2.6 Hava gəmilərinin uçuşa yararlılığının saxlanılmasını idarə edən təşkilat tərəfindən hava gəmisinin texniki qeyd sistemində dəyişiklik edilməsi prosedurunu təsdiq edir;

11.2.7 Müvafiq tələblərə uyğun olaraq, uçuşa yararlılığın yoxlanılması sertifikatının verilməsi üçün müraciəti və rəyi aldıqda aşağıdakı tədbirləri görür:

11.2.7.1 təqdim edilən rəydə öz əksini tapmış öhdəlik bəyanatına əsasən uçuşa yararlılıq üzrə tədbirlərin həyata keçirilməsini yoxlayır;

11.2.7.2 sözügedən rəyin qiymətləndirilməsi üçün əlavə məlumatlar tələb etməklə onları təhlil edir;

11.2.8 Uçuşa yararlılığı yoxlayarkən müvafiq tələblərə uyğun olaraq bu sahədə ixtisaslaşmış müfəttişləri cəlb edir və yoxlama uğurla başa çatdıqda, uçuşa yararlığın yoxlanılması sertifikatını verir;

11.2.9 Uçuşa yararlılığın yoxlanılmasını həyata keçirərkən hava gəmisinin uçuşa yararlılığının saxlanılması üzrə qeydlər sisteminə, hava gəmisinin texniki qeydlər sisteminə, o cümlədən texniki xidmət üzrə məlumatlara çıxışı təmin edir;

11.2.10 Hava gəmilərinin uçuşa yararlılığının saxlanılması üzrə müfəttiş yoxlamalarını həyata keçirərkən və ya digər sübutlar əsasında müvafiq tələblərə uyğunsuzluq, o cümlədən uçuşların təhlükəsizliyinin təmin edilməsi standartlarını aşağı salan və uçuşların təhlükəsizliyinə təhdid yaradan nöqsanlar aşkar etdikdə, bu nöqsanları I dərəcəli nöqsanlar kimi müəyyən edir;

11.2.11 Hava gəmilərinin uçuşa yararlılığının saxlanılması üzrə müfəttiş yoxlamalarını

həyata keçirərkən və ya digər sübutlar əsasında müvafiq tələblərə uyğunsuzluq, o cümlədən uçuşların təhlükəsizliyinin təmin edilməsi standartlarını aşağı sala biləcək və uçuşların təhlükəsizliyinə təhdid yarada biləcək nöqsanlar aşkar etdikdə, bu nöqsanları II dərəcəli nöqsanlar kimi müəyyən edir.

11.2.12 I dərəcəli nöqsanları aşkar etdikdə, yoxlamadan sonra müvafiq nöqsanların aradan qaldırılması üzrə uçuşqabağı tədbirlərin görülməsini tələb edir, habelə uçuşa yararlılığın yoxlanılması sertifikatının hüquqi qüvvəsini dayandırır və ya onu ləğv edir;

11.2.13 II dərəcəli nöqsanlar aşkar etdikdə, nöqsanların xarakterindən asılı olaraq, onların aradan qaldırılması üzrə tədbirlərin görülməsini tələb edir;

11.2.14 Mülki aviasiya sahəsində məlumatların vahid qeydiyyat sisteminə aşağıdakıları daxil edir və bu məlumatları hava gəmisinin tamamilə istismardan çıxarılmasından sonra ən azı 2 (iki) il müddətində saxlayır:

1. hava gəmilərinin uçuşa yararlılıq sertifikatlarını;
2. hava gəmilərinin uçuşa yararlılığının yoxlanılması sertifikatlarını;
3. hava gəmilərinin uçuşa yararlılığının yoxlanılması sertifikatının verilməsi üçün rəyləri;
4. Agentlik tərəfindən keçirilən uçuş yararlılığının yoxlanılmasına dair hesabatları;
5. hava gəmilərinə aid bütün yazışmaların surətini;
6. hər hansı istisna və müvafiq tədbirin təfərrüatlarını;
7. bu Qaydanın 11.2-ci bəndində qeyd edilən bütün sənədlərin surətlərini.

11.3 Agentlik müvafiq tələblərin yerinə yetirilməsinə nəzarət baxımından aşağıdakıları həyata keçirir:

11.3.1 Hava gəmilərının uçuşa yararlılığının saxlanılmasını təmin edən təşkilatı təsdiq etdikdə:

1. hava gəmilərının uçuşa yararlılığının saxlanılmasını təmin edən təşkilatın müvafiq tələblərə uyğunluğunu yoxlamaq məqsədilə müfəttiş yoxlaması keçirir;
2. məsul rəhbər və şəxslər kimi müəyyən edilmiş şəxslərin namizədliyini təsdiq edir və bu barədə ərizəçiyə yazılı məlumat verir;
3. hava gəmilərının uçuşa yararlılığının saxlanılmasını təmin edən təşkilatın təlimatında qeyd edilən prosedurların müvafiq tələblərə uyğunluğunu müəyyən edir və öhdəliklərin qəbul edilməsi haqqında bəyanatın məsul rəhbər şəxs tərəfindən imzalanmasını yoxlayır;
4. təsdiqin əhəmiyyətini və hava gəmilərının uçuşa yararlılığının saxlanılmasını təmin edən təşkilatın təlimatında qeyd edilən prosedurlara riayət etmə öhdəliyinin imzalanmasının səbəbini tam mənada başa düşməsinə əmin olmaq məqsədilə təsdiq üçün keçirilən müfəttiş yoxlaması zamanı ən azı bir dəfə məsul rəhbərlə görüş keçirir;
5. təsdiq üçün keçirilən audit zamanı aşkarlanan bütün nöqsanları hava gəmilərının uçuşa yararlılığının saxlanılmasını təmin edən təşkilata yazılı formada təqdim edir;
6. təsdiqin verilməsindən əvvəl hava gəmilərının uçuşa yararlılığının saxlanılmasını təmin edən təşkilatın bütün nöqsanları aradan qaldırdığına əmin olmaq üçün təkrar müfəttiş yoxlaması keçirir;
7. hava gəmilərının uçuşa yararlılığının saxlanılmasını təmin edən təşkilatın təsdiqi üçün keçirilən müfəttiş yoxlaması zamanı aşkar edilmiş bütün nöqsanlar aradan qaldırıldıqda, sözügedən təşkilatın uçuşa yararlılığının saxlanılmasının təmin

edilməsi üzrə təlimatını təsdiq edir, habelə bu təşkilata təsdiq sertifikatını təqdim edir;

11.3.2 Qeydiyyata alınmış hava gəmilərinin uçuşa yararlılığının saxlanılmasını təmin edən təşkilatın idarə etdiyi hava gəmisi nümunəsinin uyğunluğunu 24 (iyirmi dörd) ayı keçməyən dövriliklə tam şəkildə yoxlayır;

11.3.3 Məsul rəhbərin yoxlamalar zamanı meydana çıxan mühüm məsələlər barədə məlumatlandırılmasını təmin etmək məqsədilə onunla 24 ayda ən azı bir dəfə görüş keçirir;

11.3.4 Qeydiyyata alınmış hava gəmilərinin uçuşa yararlılığının saxlanılmasını təmin edən təşkilat tərəfindən təsdiq zamanı təqdim edilən məlumatlara aid dəyişiklikləri təsdiqləyir və bu dəyişikliklər zamanı sözügedən təşkilatın fəaliyyətinə dair əlavə şərtləri müəyyən edir;

11.3.5 Hava gəmilərinin uçuşa yararlılığının saxlanılmasını təmin edən təşkilatın təlimatında edilən dəyişikliklərin uyğunluğunu yoxlayaraq təsdiq edir;

11.3.6 Hava gəmilərinin uçuşa yararlılığının saxlanılmasını təmin edən təşkilatın təlimatında dolayısilə sözügedən təşkilat tərəfindən dəyişiklik edildikdə, bu dəyişikliyin uçuşların təhlükəsizliyinə təsirinin səviyyəsini yoxlayır;

11.3.7 Hava gəmilərinin uçuşa yararlılığının saxlanılmasını təmin edən təşkilatda müfəttiş yoxlamaları həyata keçirərkən və ya digər sübutlar əsasında tələblərə əhəmiyyətli uyğunsuzluq, o cümlədən uçuşların təhlükəsizliyinin təmin edilməsi standartlarını aşağı salan və uçuşların təhlükəsizliyinə təhdid yaradan nöqsanlar aşkar etdikdə, bu nöqsanları I dərəcəli nöqsanlar kimi təsnif edir;

11.3.8 Hava gəmilərinin uçuşa yararlılığının saxlanılmasını təmin edən təşkilatda müfəttiş yoxlamaları həyata keçirərkən və ya digər sübutlar əsasında tələblərə uyğunsuzluq, o cümlədən uçuşların təhlükəsizliyinin təmin edilməsi standartlarını aşağı sala biləcək və uçuşların təhlükəsizliyinə təhdid yarada biləcək nöqsanlar aşkar etdikdə, bu nöqsanları II dərəcəli nöqsanlar kimi müəyyən edir;

11.3.9 I dərəcəli nöqsan aşkar etdikdə, bu nöqsan aradan qaldırılana qədər hava gəmilərinin uçuşa yararlılığının saxlanılmasını təmin edən təşkilatın təsdiq sertifikatını tamamilə və ya qismən ləğv edir, hüquqi qüvvəsini dayandırır və ya məhdudlaşdırır;

11.3.10 II dərəcəli nöqsan aşkar etdikdə, nöqsanın xüsusiyyətindən asılı olaraq, bu nöqsanı aradan qaldırmaq üçün 3 (üç) aydan çox olmayan müddət təyin edir;

11.3.11 Potensial təhlükə olduğu halda, hava gəmilərinin uçuşa yararlılığının saxlanılmasını təmin edən təşkilatın təsdiq sertifikatının hüquqi qüvvəsini dayandırır;

11.3.12 Mülki aviasiya sahəsində məlumatların vahid qeydiyyat sisteminə aşağıdakı sənədləri ən azı 5 (beş) il müddətinə saxlanılması üçün daxil edir:

1. təşkilata təsdiqin verilməsinə dair müraciət ərizələri;
2. hər hansı dəyişiklik daxil olmaqla, təşkilatın təsdiqlənməsi haqqında sertifikat;
3. müfəttiş yoxlamalarının aparılmalı olduğu və aparıldığı tarixləri göstərən audit proqramının surəti;
4. bütün audit sənədləri daxil olmaqla, nəzarətə aid qeydlər;
5. bütün yazışmaların surətləri;
6. hər hansı istisna və müvafiq tədbirin təfərrüatları;

7. hava gəmilərinın uçuşa yararlılığının saxlanılmasını təmin edən təşkilatın təlimatı və ona edilən deyişikliklər;
8. bu Qaydanın 11.3-cü bəndində qeyd edilən qaydaya uyğun olaraq təsdiq edilməli olan bütün sənədlərin surətləri.

11.4 Agentlik müvafiq tələblərin yerinə yetirilməsinə nəzarət baxımından aşağıdakıları həyata keçirir:

11.4.1 Hava gəmilərinə texniki xidmət göstərən təşkilatı təsdiq etdikdə:

1. hava gəmilərinə texniki xidmət göstərən təşkilatın müvafiq tələblərə uyğunluğunu yoxlamaq məqsədilə müfəttiş yoxlaması keçirir;
2. məsul rəhbər və şəxslər kimi müəyyən edilmiş şəxslərin namizədliyini təsdiq edir və bu barədə ərizəçiyə yazılı məlumat verir;
3. hava gəmilərinə texniki xidmət göstərən təşkilatın təlimatında qeyd edilən prosedurların müvafiq tələblərə uyğunluğunu müəyyən edir və öhdəliklərin qəbul edilməsi haqqında bəyanatın məsul rəhbər tərəfindən imzalanmasını yoxlayır;
4. təsdiqin əhəmiyyətini və hava gəmilərinə texniki xidmət göstərən təşkilatın təlimatında qeyd edilən prosedurlara riayət etmə öhdəliyinin imzalanmasının səbəbini tam dəqiqləşdirmək məqsədilə təsdiq üçün keçirilən müfəttiş yoxlaması zamanı məsul rəhbərlə ən azı bir dəfə görüş keçirir;
5. təsdiq üçün keçirilən müfəttiş yoxlaması zamanı aşkarlanan bütün nöqsanları Hava gəmilərinə texniki xidmət göstərən təşkilata yazılı formada təqdim edilir;
6. təsdiqin verilməsindən əvvəl hava gəmilərinə texniki xidmət göstərən təşkilatın bütün nöqsanları aradan qaldırdığına əmin olmaq üçün təkrar müfəttiş yoxlaması keçirir;
7. hava gəmilərinə texniki xidmət göstərən təşkilatın təsdiqi üçün keçirilən müfəttiş yoxlaması zamanı aşkar edilmiş bütün nöqsanlar aradan qaldırıldıqda, sözügedən təşkilatın təlimatını təsdiq edir, habelə bu təşkilata təsdiq sertifikatını təqdim edir.

11.4.2 Qeydiyyata alınmış hava gəmilərinə texniki xidmət göstərən təşkilatın uyğunluğu 24 (iyirmi dörd) ayılıq dövr keçmədən tam şəkildə yoxlanılır;

11.4.3 Yoxlamalar zamanı meydana çıxan mühüm məsələlər barədə məsul rəhbərin məlumatlandırılmasını təmin etmək məqsədilə onunla 24 (iyirmi dörd) ayda ən azı bir dəfə görüş keçirilir;

11.4.4 Qeydiyyata alınmış hava gəmilərinə texniki xidmət göstərən təşkilat tərəfindən təsdiq zamanı təqdim edilən məlumatlarda dəyişiklikləri təsdiqləyir və sözügedən təşkilatın fəaliyyətinə dair əlavə şərtləri müəyyən edir;

11.4.5 Hava gəmilərinə texniki xidmət göstərən təşkilatın təlimatına edilən dəyişikliklərin uyğunluğunu yoxlayaraq bu dəyişiklikləri birbaşa təsdiq edir və bü cür dəyişikliyin uçuşların təhlükəsizliyinin təmin edilməsinə təsirinin səviyyəsini yoxlayır;

11.4.6 Hava gəmilərinə texniki xidmət göstərən təşkilatda müfəttiş yoxlamalarını həyata keçirərkən və ya digər sübutlar əsasında tələblərə əhəmiyyətli uyğunsuzluq, o cümlədən uçuşların təhlükəsizliyinin təmin edilməsi standartlarını aşağı salan və uçuşların təhlükəsizliyinə təhdid yaradan nöqsanlar aşkar etdikdə, bu nöqsanları I dərəcəli nöqsanlar kimi təsnif edir;

11.4.7 Hava gəmilərinə texniki xidmət göstərən təşkilatda müfəttiş yoxlamalarını həyata keçirərkən və ya digər sübutlar əsasında müvafiq tələblərə uyğunsuzluq, o cümlədən

uçuşların təhlükəsizliyinin təmin edilməsi standartlarını aşağı sala biləcək və uçuşların təhlükəsizliyinə təhdid yarada biləcək nöqsanlar aşkar etdikdə, bu nöqsanları II dərəcəli nöqsanlar kimi təsnif edir;

11.4.8 I dərəcəli nöqsan aşkar etdikdə, bu nöqsan aradan qaldırılmayana qədər hava gəmilərinə texniki xidmət göstərən təşkilatın təsdiq sertifikatını tamamilə və ya qismən ləğv edir, hüquqi qüvvəsini dayandırır və ya məhdudlaşdırır;

11.4.9 II dərəcəli nöqsan aşkar etdikdə, nöqsanın xüsusiyyətindən asılı olaraq bu nöqsanı aradan qaldırmaq üçün 3 (üç) aydan çox olmayan müddət təyin edir və uçuşların təhlükəsizliyinin təmin edilməsi baxımından zəruri olduqda hava gəmilərinə texniki xidmət göstərən təşkilatın təsdiq sertifikatını tamamilə və ya qismən ləğv edir, hüquqi qüvvəsini dayandırır və ya məhdudlaşdırır;

11.4.10 Mülki aviasiya sahəsində məlumatların vahid qeydiyyat sisteminə aşağıdakı sənədləri ən azı 4 (dörd) il müddətinə saxlanılması üçün daxil edir:

1. təşkilata təsdiqin verilməsinə dair müraciət ərizələri;
2. hər hansı dəyişiklik daxil olmaqla, təşkilatın təsdiqlənməsi haqqında sertifikat;
3. müfəttiş yoxlamalarının aparılmalı olduğu və aparıldığı tarixləri göstərən audit proqramının surəti;
4. bütün audit sənədləri daxil olmaqla, nəzarətə aid qeydlər;
5. bütün yazışmaların surətləri;
6. hər hansı istisnanın və müvafiq tədbirin təfərrüatları;
7. hava gəmilərinə texniki xidmət göstərən təşkilatın təlimatını və ona edilən deyişiklikləri;
8. Bu Qaydanın 11.4-cü bəndində qeyd edilən qaydaya uyğun təsdiq olunan bütün sənədlərin surətləri.

11.5 Agentlik müvafiq tələblərin yerinə yetirilməsinə nəzarət baxımından aşağıdakıları həyata keçirir:

11.5.1 Lizinq müqaviləsini təsdiq etməzdən əvvəl hava gəmilərinin müvafiq tələblərə uyğunluğunu yoxlamaq məqsədilə müfəttiş yoxlaması keçirir;

11.5.2 Lizinq müqaviləsi bağlanarkən icarəyə götürülən hava gəmilərinin müvafiq tələblərə uyğunluğunu yoxlamaq məqsədilə audit planına uyğun olaraq müfəttiş yoxlaması keçirir;

11.5.3 Hava gəmilərının uçuşa yararlılığının saxlanılmasını təmin edən təşkilatın təsdiqi zamanı sözügedən təşkilatın müvafiq tələblərə uyğunluğunu yoxlamaq məqsədilə 24 (iyirmi dörd) ayda ən azı bir dəfə müfəttiş yoxlaması keçirir;

11.5.4 Hava gəmisində keçirilən müfəttiş yoxlamaları zamanı aşkar edilmiş nöqsanları bu Qaydanın 11.2.10-cü və 11.2.11-ci yarımbəndlərinə uyğun təsnif edir, 11.2.12-ci və 11.2.13-cü yarımbəndlərinə uyğun tədbirlər görür;

11.5.5 Hava gəmilərının uçuşa yararlılığının saxlanılmasını təmin edən təşkilatlarda keçirilən müfəttiş yoxlamaları zamanı aşkar edilmiş nöqsanları bu Qaydanın 11.3.7-ci və 11.3.8-ci yarımbəndlərinə uyğun təsnif edir, 11.3.9-cu və 11.3.10-cu yarımbəndlərə uyğun tədbirlər görür;

11.5.6 Mülki aviasiya sahəsində məlumatların vahid qeydiyyat sisteminə aşağıdakı sənədləri daxil edir və bu sənədləri hava gəmisinin tamamilə istismardan çıxarılmasından sonra

ən azı 2 (iki) il müddətində saxlanılmasını təmin edir:

1. hava gəmilərinin uçuşa yararlılıq sertifikatları;
2. hava gəmilərinə aid bütün yazışmaların surəti;
3. hava gəmisində keçirilən hər hansı müfəttiş yoxlamasına dair hesabat;
4. hər hansı istisna və müvafiq tədbir haqqında məlumatlar.

12 AERODROMLARIN VƏ HELİKOPTER MEYDANÇALARININ LAYİHƏLƏNDİRİLMƏSİ VƏ FƏALİYYƏTİ ÜZRƏ NƏZARƏTİN HƏYATA KEÇİRİLMƏSİ

12.1 Agentlik aerodromların, helikopter meydançalarının, aerodrom və helikopter meydançaları istismarçılarının fəaliyyətinin sertifikatlaşdırılmasını və onların fəaliyyəti üzərində nəzarəti həyata keçirir.

12.2 Aerodrom və helikopter meydançalarının istismarçıları tərəfindən müvafiq tələblərə riayət olunmasına və lazımi qaydada yerinə yetirilməsinə Agentlik dövlət nəzarətini həyata keçirir.

12.3 Agentlik bu Qaydanın 12.2-ci bəndində qeyd edilən tələblərə riayət olunması məqsədilə isifadə oluna bilən uçuşların təhlükəsizliyinin təminat vasitələrini işləyib hazırlayır.

12.4 Müvafiq tələblərə riayət olunmasının təmin edilməsi şərtilə aerodrom və helikopter meydançaları istismarçıları tərəfindən uyğunluğun alternativ təminat vasitələrindən istifadə oluna bilər.

12.5 Agentlik mülki aviasiya sahəsində fəaliyyət göstərən xidmət təminatçıları, mülki hava gəmilərinin istismarçıları, digər təşkilatlar və şəxslər tərəfindən istifadə olunan uyğunluğun alternativ təminat vasitələrinin uyunluğunun təmin edilməsinə imkan yaradılmasını mütəmadi olaraq qiymətləndirən idarəetmə sistemi təsis edir.

12.6 Agentlik aerodrom və helikopter meydançaları istismarçılarının təklif etdiyi uyğunluğun alternativ təminat vasitələrini təqdim olunan sənədlərin təhlili əsasında qiymətləndirir və uçuşların təhlükəsizliyinin təmini baxımından zəruri hesab olunacağı təqdirdə, mülki aviasiya istismarçılarının fəaliyyətinin, o cümlədən aerodromun və helikopter meydançasının müfəttiş yoxlamasını həyata keçirir.

12.7 Agentlik aerodrom və helikopter meydançaları istismarçılarının təklif etdiyi uyğunluğun alternativ təminat vasitələrinin uyğun olduğu qənaətinə gəldikdə, əsassız gecikməyə yol vermədən aşağıdakı tədbirləri görür:

12.7.1 Müraciət edən aerodrom və helikopter meydançaları istismarçılarını uyğunluğun alternativ təminat vasitələrinin tətbiqinin mümkünlüyü barədə məlumatlandırır və müraciət edən mülki aviasiya istismarçısının sertifikatına müvafiq düzəlişlər edir;

12.7.2 Sertifikat alınması üçün təqdim edilən sənədlərin surətləri də daxil olmaqla, onların məzmunu barədə Agentliyə məlumat verilməsini tələb edir;

12.7.3 Qəbul edilmiş uyğunluğun alternativ təminat vasitələrini qiymətləndirir;

12.7.4 Uçuşların təhlükəsizliyinin təmini baxımından zəruri olduqda, digər sertifikatlaşdırılmış aerodromlara məlumat verir.

12.8 "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanunu və ondan irəli gələn tələblərə uyğunluğu təmin etmək məqsədilə Agentlik uyğunluğun alternativ təminat vasitələrindən istifadə etdiyi təqdirdə, aşağıdakı tədbirləri görür:

12.8.1 Nəzarəti altında olan bütün mülki aviasiya istismarçılarına uyğunluğun alternativ təminat vasitələrini təqdim edir;

12.8.2 Əsassız gecikməyə yol vermədən mülki aviasiya istismarçılarını bu barədə məlumatlandırır;

12.8.3 Uyğunluğun alternativ təminat vasitələrinin tam təsvirini, o cümlədən bununla əlaqəli olan prosedurlarda edilən hər hansı dəyişiklikləri, habelə bu Qaydanın tələblərinə riayət olunduğunu göstərən qiymətləndirməni aerodrom və helikopter meydançaları istismarçılarına təqdim edir;

12.9 Agentlik uçuşların təhlükəsizliyinə dair alınmış hər hansı müvafiq məlumatı lazımi qaydada təhlil etmək üçün zəruri idarəetmə sistemi yaradaraq tətbiq edir və əsassız gecikməyə yol vermədən istənilən məlumatları, o cümlədən müvafiq tələblər çərçivəsində onların məhsullar, ehtiyat hissələri, cihazlar, şəxslər və təşkilatlarla bağlı təhlükəsizlik problemlərinə vaxtlı-vaxtında reaksiya verir.

12.10 Agentlik uçuşların təhlükəsizliyinə dair məlumatları əldə etdikdən sonra müvafiq olaraq təhlükəsizliyə dair verilən göstərişləri nəşr etməklə, təhlükəsizlik probleminin həll edilməsi üçün lazımi tədbirlər görür.

12.11 Agentlik təcili tədbirlərin görülməsini tələb edən təhlükəli hal aşkar etdikdə, sertifikatlaşdırma üzrə hər hansı dəyişdirilmiş və ya əlavə tələbin uyğunluğunun təsdiqlənməsi də daxil olmaqla, təhlükəsizliyə dair göstərişlər nəşr edir.

12.12 Uçuşların təhlükəsizliyinə dair direktiv, vəziyyətdən asılı olaraq, müvafiq mülki aviasiya istismarçılarına göndərilir və ən azı aşağıdakı məlumatları özündə ehtiva edir:

12.12.1 Təhlükəli vəziyyətin müəyyənləşdirilməsi;

12.12.2 Təsirə məruz qalmış konstruksiyanın, avadanlığın və ya əməliyyatın müəyyənləşdirilməsi;

12.12.3 Tələb olunan tədbirlər və onların əsaslandırılması, o cümlədən riayət edilməli olan əlavə və ya dəyişdirilmiş sertifikatlaşdırma şərtləri;

12.12.4 Tələb olunan tədbirlərin yerinə yetirilməsi üçün son müddət;

12.12.5 Direktivin qüvvəyə minmə tarixi.

12.13 Agentlik mülki aviasiya istismarçılarının fəaliyyətinin uçuşların təhlükəsizliyinə dair tətbiq olunan direktivlərə uyğunluğunu yoxlayır.

12.14 Agentlik özündə aşağıdakıları ehtiva edən idarəetmə sistemini yaradır və tətbiqini təmin edir:

12.14.1 Üzərinə düşən vəzifələri icra etmək üçün kifayət sayda işçi heyəti, o cümlədən aerodrom və helikopter müfəttişləri;

12.14.2 Üzərinə düşən vəzifələri yerinə yetirmək üçün müvafiq ixtisasa və səriştəsinin artırılması üçün zəruri biliklərə, təcrübəyə, ilkin və dövri hazırlığa malik müfəttiş

heyəti;

12.14.3 Müvafiq vəzifələrin düzgün yerinə yetirilməsini təmin etmək üçün işçi heyəti;

12.14.4 Daxili audit və təhlükəsizliklə bağlı risklərin idarə edilməsi proseslərinin yaradılması daxil olmaqla, idarəetmə sisteminin müvafiq tələblərə və prosedurlara uyğunluğunun monitorinqi;

12.14.5 İdarəetmə sisteminə daxil olan hər bir fəaliyyət sahəsi üzrə müvafiq tapşırıqları yerinə yetirmək üçün məsuliyyət daşıyan bir və ya bir neçə şəxs;

12.14.6 Bütün zəruri məlumatların qarşılıqlı mübadiləsində iştirak edən mülki aviasiya istismarçılarına kömək məqsədilə təsbit edilən prosedurlar.

12.15 Agentlik tərəfindən təsis edilən qeydiyyat sistemi bütün aerodrom və helikopter meydançaları istismarçıları üçün əlçatan bir sistem kimi fəaliyyət göstərməli və aşağıdakıları özündə ehtiva etməlidir:

12.15.1 İdarəetmə sisteminin sənədləşdirilmiş siyasəti və prosedurları;

12.15.2 İşçi heyətinə keçirilən təlimlər, onların ixtisaslaşdırılması və səlahiyyətləri;

12.15.3 Mülki aviasiya istismarçılarının sertifikatlaşdırılması və onlara daimi nəzarət prosesi;

12.15.4 Aerodrom və helikopter meydançaları istismarçıları tərəfindən verilən öhdəliklər və onlara daimi nəzarət prosesi;

12.15.5 Müvafiq təhlükəsizlik səviyyəsinə və sertifikatlaşdırma bazasında olan xüsusi şərtlərə dair sənədlər, habelə istənilən istisnaların qəbulunun əsasları;

12.15.6 Mülki aviasiya istismarçılarının təklif etdiyi uyğunluğun alternativ təminat vasitələrinin Agentlik tərəfindən qiymətləndirilməsi meyarları;

12.15.7 Nöqsanların aradan qaldırılması üzrə tədbirlər, həmin tədbirlərin tarixləri və həyata keçiriləcək nəzarətin növü;

12.15.8 Agentlik tərəfindən görülən müvafiq tədbirlər;

12.15.9 Uçuşların təhlükəsizliyinə dair məlumatlar və sonrakı tədbirlər;

12.15.10 Agentlik tərəfindən verilən sertifikatların və götürülən öhdəliklərin siyahısı.

12.16 Mülki aviasiya istismarçılarının sertifikatlaşdırılmasına dair qeydiyyat sənədləri sertifikatların qüvvədə olduğu müddətdə qorunub saxlanılmalıdır.

12.17 Agentlik sertifikat verməzdən əvvəl sertifikatlaşma bazasına və aerodromlara, helikopter meydançalarına, habelə onların istismarçılarına dair bu Qaydanın 12.2-ci bəndi ilə müəyyən edilmiş tələblərə uyğunluğu yoxlamalıdır.

12.18 Agentlik həmçinin mülki aviasiya istismarçılarının sertifikatlaşma bazasına və tətbiq olunan tələblərə fasiləsiz riayət etdiyini və uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlərin həyata keçirildiyini yoxlamalıdır.

12.19 Bu Qaydanın 12.18-ci bəndində qeyd olunan yoxlama özündə aşağıdakıları ehtiva etməlidir:

12.19.1 Uşların təhlükəsizliyinə görə cavabdeh olan şəxslərin fəaliyyətinin

sənədləşdirilməsinin təmin edilməsi;

12.19.2 Uçuşların təhlükəsizliyinə nəzarət fəaliyyətinin nəticələri üzrə müvafiq təhlillərin aparılması və tədbirlərin görülməsi üzrə təşkilatın və ya şəxsin təyin edilməsi;

12.19.3 Müəyyən olunmuş tələblərə uyğunluq baxımından nəzarətin auditlər, müfəttiş yoxlamaları vasitəsilə həyata keçirilməsi;

12.19.4 Agentlik tərəfindən növbəti tədbirlərin (nöqsanların aradan qaldırılması ilə bağlı və icbari tədbirlər, müşahidələr) həyata keçirilməsi üçün zəruri sübutların təmin olunması.

12.20 Nəzarətin predmeti daha əvvəl həyata keçirilmiş nəzarət fəaliyyətinin nəticələri və uçuşların təhlükəsizliyinin təmin edilməsində prioritetlər nəzərə alınmaqla müəyyən edilir.

12.21 Agentlik uçuşların təhlükəsizliyinə nəzarətin həyata keçirilməsi üçün mülki aviasiya istismarçılarından zəruri məlumatları toplamaq və tələb etmək səlahiyyətinə malikdir.

12.22 Agentlik nəzarətin həyata keçirilməsi çərçivəsində aerodrom və helikopter meydançalarının istismarçılarının nəzarət etdiyi ərazilərdə uçuşların təhlükəsizliyini təhdid edə və onların istismarına təhdid yarada biləcək istənilən maneənin və bununla əlaqədar digər fəaliyyətin qabaqcadan təsdiq edilməsinin zəruriliyi barədə qərar qəbul edir.

12.23 Hər bir mülki aviasiya istismarçısı üçün Agentlik müvafiq nəzarət fəaliyyətini əhatə edən illik nəzarət planı işləyib hazırlayaraq tətbiq edir.

12.24 Nəzarət planına, hər bir nəzarət-planlaşdırma dövrü daxilində, audit yoxlamaları və təftişlər, o cümlədən uçuşların təhlükəsizliyinin təmini baxımından zəruri hallarda əvvəlcədən planlaşdırılmayan yoxlamaların əsasları və audit yoxlamalarının və təftişlərin nəzərdə tutulmuş və faktiki tarixləri haqqında qeydlər daxil edilir.

12.25 Agentlik ilkin sertifikatın verilməsinə dair müraciəti aldıqdan sonra həmin müraciəti tələblər baxımından uyğunluğunu yoxlayaraq qiymətləndirir.

12.26 Aerodrom və helikopter meydançalarının fəaliyyət göstərdiyi hallarda Agentlik sertifikatlaşdırma prosesi başa çatana qədər onun fəaliyyət şərtlərini müəyyən edir.

12.27 Agentlik aerodrom və helikopter meydançalarının sertifikatlaşdırılmasını həyata keçirir.

12.28 Agentlik aerodrom və helikopter meydançaları və onların istismarçılarını sertifikatlaşdırma prosesinin Agentlik tərəfindən müəyyən edilmiş qrafikinə dair məlumatlandırır və sertifikatı verməzdən əvvəl zəruri hesab etdiyi hər hansı təftişin, sınağın keçirilməsini, yaxud hər hansı tədbirin icrasını, zərurət olduqda təhlükəsizlik vəziyyətinin qiymətləndirilməsini tələb edir.

12.29 Agentlik tərəfindən bu Qaydanın 12.2-ci bəndi ilə müəyyən edilmiş tələblərə uyğun olan aerodrom istismarçılarına 3 (üç) il, helikopter meydançalarının istismarçılarına isə 1 (bir) il müddətinə hüquqi qüvvəyə malik sertifikat verilir.

12.30 Aerodrom və helikopter meydançalarına verilən sertifikatlarda onların xüsusiyyətləri qeyd olunur.

12.31 Bu Qaydanın 12.2-ci bəndi ilə müəyyən edilmiş tələblərə cavab verən dəyişikliklər Agentlik tərəfindən təsdiq edilir.

12.32 Agentlik tərəfindən təsdiqlənmiş dəyişiklik mülki aviasiya istismarçısına daha əvvəl verilmiş sertifikatın şərtlərindən fərqli olduqda, Agentlik mülki aviasiya istismarçısına yeni sertifikat verir.

12.33 Aerodrom və helikopter meydançalarının istismarçıları tərəfindən Agentliklə razılaşdırılmadan hər hansı dəyişikliklər həyata keçirildiyi halda Agentlik sertifikatın hüquqi qüvvəsinin dayandırılması, məhdudlaşdırılması və ya geri alınması səlahiyyətinə malikdir.

12.34 Əvvəlcədən razılıq alınmasını tələb etməyən dəyişikliklər üçün Agentlik aerodrom və helikopter meydançalarının istismarçıları tərəfindən göndərilmiş bildirişdə ehtiva olunan məlumatların lazımi qaydada idarə olunmasını və onun sertifikasiya tələblərinə və dəyişikliyə dair tətbiq olunan digər müvafiq tələblərə uyğunluğunu yoxlamaq məqsədilə qiymətləndirir.

12.35 Dəyişikliklərin qiymətləndirilməsi aşağıdakı meyarlar üzrə aparılır:

12.35.1 Dəyişikliyin predmeti;

12.35.2 Ziyanın müəyyən edilməsi;

12.35.3 Uçuşların təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar risklərin təhlili;

12.35.4 Risklərin qiymətləndirilməsi və azaldılması.

12.36 Dəyişikliklər müəyyən edilmiş tələblərə uyğun olduqda, Agentlik yeni sertifikat verir.

12.37 Dəyişikliklər bu Qaydanın 12.2-ci bəndi ilə müəyyən olunmuş tələblərə uyğun olmadıqda, Agentlik aşağıdakı tədbirləri görür:

12.37.1 Aerodrom və helikopter meydançalarının istismarçılarını uyğunsuzluğa dair xəbərdar edir və sonrakı dəyişiklikləri tələb edir;

12.37.2 I və II dərəcəli nöqsanların aşkar edildiyi təqdirdə, bu Qaydada müəyyən edilmiş tədbirləri həyata keçirir.

12.38 Agentlik uçuşların təhlükəsizliyinin təmin edilməsi baxımından əhəmiyyətə malik nöqsanları təhlil edə bilən sistemə malik olmalıdır.

12.39 “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblər, aerodrom və helikopter meydançalarının istismarçılarının prosedurları və təlimatları, sertifikatın şərtləri və məzmunu ilə bağlı təhlükəsizliyin təmini səviyyəsini aşağı salan və ya uçuşların təhlükəsizliyinə təhdid yaradan hər hansı uyğunsuzluq aşkar edildikdə, Agentlik I dərəcəli nöqsanların aşkar edilməsi haqqında qərar qəbul edir.

12.40 I dərəcəli nöqsanlar özündə aşağıdakı əhatə edir:

12.40.1 Gündəlik iş saatlarında və iki dəfə sorğu edildikdən sonra Agentliyin müfəttişləri tərəfindən aerodrom və helikopter meydançalarına və onların istismarçılarının məkanlarına girişinə maneəçilik yaradılması;

12.40.2 Sertifikatın təqdim olunan saxta sənədlər vasitəsilə əldə edilməsi;

12.40.3 Qanunsuz fəaliyyət və sertifikatdan sui-istifadə halları;

12.40.4 Texniki avadanlıq və sistemlərin ciddi uyğunsuzluğu;

12.40.5 Uçuşların təhlukəsizliyinə ciddi təhdid yaradan kənaraçıxmalar;

12.40.6 Təşkilatın məsul rəhbərinin olmaması.

12.41 Birinci dərəcəli nöqsanlar kimi təsnif edilən və bu Qaydanın 12.40.1-ci-12.40.6-cı yarımbəndlərində müəyyən edilmiş nöqsanlar insan həyatının itirilməsinə və ya ciddi zərər vurulmasına, o cümlədən avadanlığa ziyan vurulmasına potensial təhlükə yaradan və dərhal aradan qaldırılmalı olan nöqsanlardır .

12.42 Aerodromun və helikopter meydançasının sertifikatlaşdırma bazası, müəyyən edilmiş tələbərə mülki aviasiya istismarçılarının prosedurları və təlimatları, sertifikatın şərtləri və məzmunu ilə bağlı təhlükəsizlik səviyyəsini aşağı sala biləcək və ya uçuşların təhlükəsizliyinə təhdid yarada biləcək hər hansı uyğunsuzluq aşkar edildikdə, Agentlik tərəfindən II dərəcəli nöqsanların aşkar edilməsi haqqında qərar qəbul edilir. İkinci dərəcəli nöqsanlar kimi təsnif edilən nöqsanlar əsas sistemin fəaliyyətinin səmərəliliyinə əhəmiyyətli problem yaradan və ya belə problemin yaranmasına səbəb ola bilən, 12 həftəyədək nöqsanların aradan qaldırılması üzrə müvafiq tədbir görülməli olan çatışmazlıq və ya hadisədir.

12.43 Müfəttiş yoxlamalarının həyata keçirilməsi zamanı və ya digər hallarda nöqsanlar aşkar olunarsa, Agentlik müəyyən edilən tədbirlərə xələl gətirməmək şərtilə, nöqsanlar barədə mülki aviasiya istismarçılarına yazılı qaydada məlumat verir və həmin nöqsanların aradan qaldırılması üzrə tədbirlərin görülməsini onlardan tələb edir. III dərəcəli nöqsanlar kimi təsnifləşdirilən bu nöqsanlar sistem xarakterli əhəmiyyətli nöqsan olmayıb 24 həftəyədək nöqsanların aradan qaldırılması üzrə müvafiq tədbir görülməli olan çatışmazlıq və ya hadisədir.

12.44 I dərəcəli nöqsanlar aşkar olunduqda, Agentlik mülki aviasiya istismarçıları tərəfindən həmin nöqsanların aradan qaldırılması üzrə tədbirlər tam həyata keçirilməyənədək nöqsanların həcmindən və uçuşların təhlükəsizliyi üçün əhəmiyyətindən asılı olaraq, fəaliyyətin qadağan edilməsi və ya məhdudlaşdırılması üzrə təxirəsalınmaz tədbirlər görür, habelə, lazım gələrsə, sertifikatın geri alınması və yaxud hüquqi qüvvəsinin tamamilə və ya qismən məhdudlaşdırılması və ya dayandırılması üzrə tədbirlər görür.

12.45 II dərəcəli nöqsanlar aşkar olunduqda, Agenltik aşağıdakı tədbirləri görür:

12.45.1 Mülki aviasiya istismarçılarına nöqsanların xarakterinə uyğun olaraq onların aradan qaldırılması üzrə tədbirlərin həyata keçirilməsi üçün bu Qaydanın 12.42-ci yarımbəndində müəyyən edilmiş müddət verir;

12.45.2 Mülki aviasiya istismarçıları tərəfindən tərtib ediləcək tədbirlər planına əsasən təklif olunan tədbirlərin nöqsanların aradan qaldırılması üçün kifayət olması qənaətinə gəldikdə, həmin təklifləri qəbul edir;

12.45.3 Mülki aviasiya istismarçıları nöqsanların aradan qaldırılması üzrə tədbirlər planı təqdim etmədiyi, yaxud Agentlik tərəfindən qəbul edilmiş və ya uzadılmış müddət ərzində müvafiq tədbirləri həyata keçirmədiyi təqdirdə, aşkar edilən II dərəcəli nöqsanı I dərəcəli nöqsan kimi təsnif edərək bu Qayda ilə müəyyən edilmiş müvafiq tədbirlər

görür.

12.46 Agentlik tərtib etdiyi rəyləri və tətbiq etdiyi müvafiq tədbirləri, habelə nöqsanların aradan qaldırılması üzrə tədbirləri və nöqsanların aradan qaldırıldığı tarixləri qeydə alır.

12.47 Aerodrom və helikopter meydançalarının istismarçıları müəyyən edilmiş tələblərə uyğunluğu təmin etmək üçün Agentlik tərəfindən qəbul edilmiş uyğunluq vasitələrinə alternativ olan vasitələrdən istifadə edirlər.

12.48 Mülki aviasiya istismarçısı Agentlik tərəfindən qəbul edilən nöqsanların aradan qaldırılması üzrə tədbirlər əvəzinə alternativ uyğunluq vasitələrindən istifadə etmək istədikdə, o, həmin alternativ uyğunluq vasitələrini tətbiq etməzdən əvvəl onların tam təsvirini Agentliyə təqdim etməlidir.

12.49 Agentlik aerodrom və helikopter meydançalarının istismarçıları tərəfindən "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl edilməsi üçün mümkün uyğunluq vasitələrini müəyyən edir.

12.50 Aerodrom və helikopter meydançalarının istismarçıları Agentlik tərəfindən müəyyən edilmiş mümkün uyğunluq vasitələrinə alternativ uyğunluq vasitələri müəyyən etdikdə, bu barədə Agentliyə ətraflı məlumat verməlidirlər.

12.51 Həmin məlumat istismarçıların təlimatlarında edilən son dəyişiklikləri, habelə müvafiq qaydalara riayət edilməsini nümayiş etdirən qiymətləndirməni də özündə ehtiva etməlidir. Mülki aviasiya istismarçıları həmin alternativ uyğunluq vasitələrini Agentlik tərəfindən təsdiq edildikdən sonra tətbiq edir..

12.52 Agentlik tərəfindən aerodrom və helikopter meydançalarının təhlükəsizliyinin təmin edilməsi üçün yoxlamalar aşağıdakı istiqamətlər üzrə aparılır:

12.52.1 Aerodrom və helikopter meydançalarının istismarçıları tərəfindən həmin ərazilərin və onun ətraf ərazilərinin müşahidəsi;

12.52.2 Bu zonalara daxil olma ilə bağlı riskləri azaltmaq üçün müvafiq tədbirlərin görülməsi məqsədilə sertifikatlaşdıma bazasında nəzərdə tutulan maneənin hündürlüyünün məhdudiyyət və müdafiə səthlərinə, həmçinin aerodrom və helikopter meydançaları ilə əlaqəli digər səth və zonalara nəzarət edilməsi;

12.52.3 Tədbirlərin həyata keçirilməsi məqsədilə maneələrin işarələnməsi və işıqlandırılması;

12.52.4 Müvafiq tədbirlərin görülməsi məqsədilə insan amili və torpaqdan istifadə ilə bağlı təhlükələrin qarşısının alınması;

12.52.5 Mülki aviasiya istismarçıları tərəfindən görülən tədbirlərin sənədləşdirilməsi, təftişlərin, sınaqların, təhlükəsizlik üçün risklərin qiymətləndirilməsi və təlimlərin həyata keçirilməsi;

12.52.6 Aerodromun və helikopter meydançalarının, habelə mövcud maneələrin hündürlüyünün məhdudiyyət və müdafiə səthlərinin, həmçinin aerodromla bağlı digər sahələrin istismarı üçün onları təhlükəli edə biləcək heç bir xüsusiyyətin və ya

cəhətin mövcudluğunun yoxlanılması;

12.52.7 Aerodrom və helikopter meydançalarının istismar prosedurlarının təsdiqlənməsi.

12.53 Qeyd edilən tələblərə uyğunluğun nümayiş etdirildiyi vasitələr, o cümlədən müvafiq layihə məlumatları, çertyojlar, təftiş, sınaq hesabatları və hesabatlar yoxlamanı aparan müfəttişə və müvafiq sorğu əsasında Agentliyə təqdim edilməlidir.

12.54 Aerodrom istismarçısı "Aerodrom üzrə Təlimat", helikopter meydançasının istismarçısı "Helikopter meydançası üzrə Təlimat" (bundan sonra Təlimatlar) hazırlayır və onun icrasını təmin edir.

12.55 Təlimatların məzmunları sertifikatın xüsusiyyətləri ilə ziddiyyət təşkil etməməlidir.

12.56 Təlimatlar aerodrom və ya helikopter meydançalarının avadanlığının, habelə maneənin hündürlüyünün məhdudiyyət və müdafiə səthlərinin, eləcə də aerodrom və helikopter meydançaları ilə bağlı digər sahələrin təhlükəsiz istifadəsinə, istismarına və texniki xidmətinə dair bütün zəruri məlumatları özündə ehtiva etməlidir.

12.57 Təlimatlara dəyişiklik edilməsi haqqında Agentliyə bildiriş xarakterli məlumat verilməsi tələb olunduqda, bu məlumat həmin dəyişiklik qüvvəyə minməzdən əvvəl Agentliyə təqdim edilməlidir.

12.58 Təlimatlarda uçuşların təhlükəsizliyinə birbaşa təhdid yaradan əlavə və dəyişikliklər Agentlik tərəfindən razılığın alınmasına müraciət edilməsi şərti ilə dərhal dərc edilə və tətbiq oluna bilər.

12.59 Aerodrom və helikopter meydançalarının istismarçıları Agentlik tərəfindən tələb edilən istənilən dəyişiklik Təlimatlara daxil etməli və aerodrom və helikopter meydançalarının bütün işçi heyətini və digər müvafiq təşkilatları onların vəzifə və öhdəliklərinə uyğun olan dəyişikliklər barədə məlumatlandırmalıdırlar.

13 TƏHLÜKƏLİ YÜKLƏRİN MÜLKİ HAVA GƏMİLƏRİ İLƏ DAŞINMASI ÜZRƏ NƏZARƏTİN HƏYATA KEÇİRİLMƏSİ

13.1 Agentlik təhlükəli yüklərin mülki hava gəmisi vasitəsilə təhlükəsiz daşınması, həmçinin uçuşların və sərnişinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə təhlükəli yüklərin daşınmasının beynəlxalq standartlara və Agentlik tərəfindən təsdiq edilən Təlimatın tələblərinə əməl edilməsinə nəzarəti həyata keçirir.

13.2 Təhlükəli yüklərin mülki hava gəmiləri ilə təhlükəsiz daşınması, yüklənməsi, boşaldılması və saxlanması ilə məşğul olan mülki aviasiya müəssisələrinin, mülki hava gəmilərinə xidmət göstərən hava limanlarının, sərnişinlərin qeydiyyatı ilə məşğul olan şirkətlər, aviasiya təhlükəsizliyi sahəsində xidmət göstərən təşkilatların, təhlükəli yüklərin göndərişi ilə məşğul olan hüquqi, vəzifəli və fiziki şəxslərin fəaliyyətinin Agentlik tərəfindən müəyyən edilmiş təhlükəli yüklərin daşınmasına dair tələb və prosedurlara uyğunluğu mütəmadi olaraq yoxlanılır.

13.3 Yoxlamalar xidmət təminatçılarının təhlükəli yüklərin yüklənməsi və daşınması üçün zəruri prosedurlara, avadanlığa və müvafiq təlim keçmiş insan resurslarına malik olmasını, həmçinin müəyyən olunan tələblərə uyğun fəaliyyətin həyata keçirilməsi üçün zəruri bilik və bacarıqlara malik olmasını yoxlayır.

13.4 Yoxlamalar perronda, sərnişin terminallarında, təhlükəsizlik üzrə baxış məntəqələrində, hava limanlarının yüklərin qəbulu və emalı məntəqələrində və poçtla təhlükəli yüklərin

göndərilməsi ilə məşğul olan subyektlərin, yükgöndərənlərin, ekspeditorların, təhlükəli yüklərin qablaşdırması ilə məşğul olan subyektlərin fəaliyyəti üzrə aparılır.

13.5 Yoxlamalar ilkin və mütəmadi müfəttiş yoxlamaları formasında Agentlik tərəfindən həyata keçirilir.

13.6 İlkin müfəttiş yoxlaması təhlükəli yüklərin mülki hava gəmilərində göndərilməsi və daşınması ilə məşğul olan subyektlər tərəfindən təhlükəli yüklərin daşınmasının Agentliyin hazırladığı təlimatlara uyğunluğunun müəyyən edilməsi və təsdiqi məqsədilə həyata keçirilir.

13.7 İlkin müfəttiş yoxlaması aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

13.7.1 Yük göndərişləri ilə məşğul olan subyektlərin təlimatları, təlim proqramları, personalın təlimlərdə işirakına dair sənədlər, yüklərin saxlanılması və emalı istiqamətində işlərin görülməsi;

13.7.2 İstismarçılar tərəfindən normal və xüsusi şəraitlərdə təhlükəli yüklərin daşınması üzrə;

13.7.3 Hava gəmisinin istismarçılarının təlimatları və personalın digər sənədləri;

13.7.4 İstismarçıların təlim proqramları;

13.7.5 Təhlükəli yüklərin hava limanlarında qəbulu və emalı.

13.8 Mütəmadi müfəttiş yoxlamasının həyata keçirilməsində məqsəd təhlükəli yüklərin mülki hava gəmilərində göndərilməsi və daşınması ilə məşğul olan subyektlər tərəfindən təhlükəli yüklərin daşınmasının Agentlik tərəfindən hazırlanmış təlimatlarla müəyyən edilmiş tələblərə uyğun həyata keçirilməsinin müəyyən edilməsidir.

13.9 Mütəmadi müfəttiş yoxlamaları aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

13.9.1 Yük göndərişləri ilə məşğul olan subyektlərin təlimatları, təlim proqramları, personalın təlimlərdə işirakına dair sənədlər, yüklərin saxlanılması və emal olunması istiqamətində işlərin görülməsi;

13.9.2 İstismarçılar tərəfindən normal və xüsusi şəraitlərdə təhlükəli yüklərin daşınması;

13.9.3 Hava gəmisinin istismarçılarının təlimatları və personalın digər sənədləri;

13.9.4 İstismarçıların təlim proqramları;

13.9.5 Təhlükəli yüklərin qablaşdırılması və sənədləşdirilməsi;

13.9.6 Təhlükəli yüklərin hava gəmilərində yüklənməsi və yerləşdirilməsi üzrə perron yoxlamaları;

13.9.7 Təhlükəli yüklərin hava limanlarında qəbulu və email;

13.9.8 Sərnişinlərin təhlükəli yüklər barədə məlumatlandırılması.

13.10 Agentlik istismarçıların təlimatlarını ən azı ildə bir dəfə yoxlayır. Təhlükəli yüklərin daşınmasını həyata keçirən istismarçıların təlimatları və fəaliyyəti ildə ən azı iki dəfə yoxlanılır.

13.11 Aşağıdakı hallar təhlükəli yüklər üzrə müfəttiş yoxlamalarının qısa zaman fasilələrilə mütəmadi şəkildə həyata keçirilməsini zəruri edir:

13.11.1 İstismarçı tərəfindən risklərin qymətləndirilməsinın nəticələri;

13.11.2 Təhlükəli yüklərin kəmiyyəti;

13.11.3 Bir neçə istismarçının bir məkanda yerləşməsi;

13.11.4 Aparılmasına məhdudiyyət qoyulmuş mövsümi əməliyyatlar;

13.11.5 Əvvəlki müfəttiş yoxlamalarının nəticələri;

13.11.6 Sertifikatlaşdırma prosesi.

13.12 Təhlükəli yüklər üzrə müfəttiş yoxlamaları Agentlik tərəfindən həyata keçirilir.

13.13 Agentlik tərəfindən həyata keçirilən yoxlamaların nəticələri sənədləşdirilərək qeydə alınır. Qeydlər yoxlamalar zamanı aşkar edilən nöqsanlarların təhlükəli yüklərin hava yolu ilə daşınmasında iştirak edən subyektlər tərəfindən aradan qaldırılması məqsədilə tədbirlər görülməsi üçün onların müəyyən edilməsinə imkan verən qeydiyyat sisteminə daxil edilir.

13.14 Təhlükəli yüklərin mülki hava gəmiləri ilə daşınmasına dövlət nəzarəti zamanı aşkar edilən nöqsanlar aşağıdakı kimi təsnif edilir:

13.14.1 I dərəcəli nöqsanlar - hava gəmisinin və ya uçuş heyətinin təhlükəli vəziyyətə salan və ya uçuşların təhlükəsizliyinə təhdid yaradan və müəyyən edilmiş tələblərlə əhəmiyyətli uyğunsuzluq;

13.14.2 II dərəcəli nöqsanlar - hava gəmisini və ya uçuş heyətini təhlükəli vəziyyətə salan və ya uçuşların təhlükəsizliyinə digər risk yarada biləcək və müəyyən edilmiş tələblərə uyğunsuzluq.

13.15 I dərəcəli nöqsanlar aşkar edildikdə, Agentlik təhlükəli yüklərin hava yolu ilə daşınmasında iştirak edən subyektlər tərəfindən nöqsanların aradan qaldırılması üzrə tədbirlər həyata keçirilənədək təhlükəli yüklərin daşınmasını qadağan edir.

13.16 II dərəcəli nöqsanlar aşkar edildikdə, Agentlik subyekt tərəfindən nöqsanların aradan qaldırılması üzrə tədbirlərin həyata keçirilməsi üçün üç ayadək vaxt təyin edir. Aşkar olunmuş nöqsanların aradan qaldırılması istiqamətində görülmüş işlər üzrə Agentlik tərəfindən təkrar yoxlamalar aparılır. Yoxlama nəticəsində nöqsanların aradan qaldırılması üzrə tədbirlər görülmədiyi aşkarlandıqda, subyektin fəaliyyəti məhdudlaşdırılır və ya dayandırılır.

14 UÇUŞLARIN TƏHLÜKƏSİZLİYİNİN İDARƏ EDİLMƏSİ SİSTEMİNƏ NƏZARƏTİN HƏYATA KEÇİRİLMƏSİ

14.1 Uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkili və idarə edilməsi Agentlik tərəfindən mütəmadi yoxlanılır. Uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin inkişaf etdirilməsi üçün onun təşkilinə nəzarət Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uçuşların Təhlükəsizliyinə dair Dövlət Proqramı" və "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası" ilə müəyyən edilmiş meyarlar üzrə Agentlik və xidmət təminatçıları tərəfindən həyata keçirilir.

14.2 Uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkilinə nəzarətin həyata keçirilməsində məqsəd sistemin səmərəliliyinin xidmət təminatçıları tərəfindən qiymətləndirilməsinə kömək etmək və nəticədə uçuşların təhlükəsizliyinin yüksək səviyyədə təmin edilməsinə töhfə verməkdir.

14.3 Yoxlama aşağıdakı ardıcıllıqla apraılır:

14.3.1 Uçuşların təhlükəsizliyi üzrə riskin idarə edilməsi;

14.3.2 Uçuşların təhlükəsizliyinə zəmanətin verilməsi.

14.4 Xidmət təminatçısının daxilində qiymətləndirmənin nəticələri uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin səmərəliliyinə dair rəyin verilməsi üçün Agentliyə təqdim edilir.

14.5 Uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin qiymətləndirilməsi ilkin sertifikatlaşdırma və nəzarətin həyata keçirilməsi zamanı aparılır.

14.6 Sertifikatlaşdırmanın aparılmasından əvvəl Agentlik uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkilinin xidmət təminatçısının fəaliyyətinə uyğunluğunu və tətbiq edilməsinin mümkünlüyünü yoxlayır. İlkin sertifikatlaşdırma prosesində uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin qiymətləndirilməsi müvafiq kağız sənədlər və elektron vasitələr üzrə aparılır. Agentliyin nəzarəti həyata keçirən səlahiyyətli şəxsi uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkili və idarə edilməsi üzrə xidmət təminatçılarına məsləhət xarakterli rəylər verir.

14.7 Agentlik uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkilinin müəyyən edilmiş tələblərə uyğun vəziyyətdə və səmərəli olmasına əmin olmaq üçün mütəmadi olaraq yoxlamalar aparır. Xidmət təminatçılarında yenidən yerində yoxlamalar aparılmaqla həyata keçirilir.

14.8 Xidmət təminatçılarının fəaliyyəti ilə bağlı və baş vermiş hər hansı dəyişikliklər yenidən yoxlamaların aparılması üçün əsasdır. Belə yenidən yoxlamalar uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin dəyişən şərtlər daxilində nə dərəcədə işlək olmasının müəyyən edilməsi üçün aparılır.

14.9 Nəzarət zamanı digər yoxlama və auditlərin nəticələri nəzərə alınır.

14.10 Agentlik aşağıdakı hallarda mütəmadi nəzarətin həyata keçirilməsinin dövriliyini 24 (iyirmi dörd) aylıq fasilələrlə həyata keçirə bilər:

14.10.1 Təşkilat uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin səmərəli təşkili sistemini yaratdıqda;

14.10.2 Təşkilatda baş verən bütün dəyişikliklərlə bağlı səmərəli nəzarət həyata keçirildikdə;

14.10.3 Təşkilatda aparılan yoxlamalar zamanı I dərəcəli nöqsanlar aşkar edilmədikdə;

14.10.4 Nöqsanların aradan qaldırılması üçün həyata keçirilən düzəliş tədbirləri Agentlik tərəfindən müəyyən edilmiş vaxt çərçivəsində həyata keçirildikdə.

14.11 Təşkilatlarda təşkil edilən uçuşların təhlükəsizliyinin idarə edilməsi sistemi aşağıdakı tələblərə cavab verməlidir:

14.11.1 Cari - sənədləşdirilməli;

14.11.2 Uyğun - təşkilatın fəaliyyətinin miqyasına və mürəkkəbliyinə mütənasib olmalı;

14.11.3 İşlək - hal-hazırda fəaliyyət göstərməli;

14.11.4 Nəticələri olmalı;

14.11.5 Səmərəli - müəyyən olunmuş məqsədə nail olmağa imkan verən və uçuşların təhlükəsizliyinin təmin edilməsinə əlverişli şərait yaradan olmalıdır.

14.12 Bu Qaydanın 14.3-cü bəndi ilə müəyyən edilmiş tələblər ardıcıl şəkildə yerinə yetirilir və bu tələblərə riayət olunmasına nəzarət təşkilatın strukturunda və fəaliyyətində hər hansı dəyişikliklər nəzərə alınmaqla həyata keçirilir.

14.13 Təşkilatda təşkil edilən uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin sənədləşdirilməməsi sistemli idarəetməyə imkan vermədiyi üçün səmərəli hesab edilə bilməz.

14.14 Təşkilatın ilkin sertifikatlaşdırılması üçün təşkilatda təşkil edilən uçuşların təhlükəsizliyinin idarə edilməsi sistemi cari vəziyyətə uyğun olmalıdır.

14.15 Yoxlamalar zamanı uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkilinin işlək olması yoxlanılır.

14.16 Uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkili səmərəli deyildirsə, müfəttişlər müvafiq təkmilləşdirmə üsullarını tətbiq etmək üçün müşahidə üzrə hesabat hazırlayır. Bu hesabat uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin davamlı təkmilləşdirilməsinə kömək etmək və uçuşların təhlükəsizliyinin təmin edilməsi mədəniyyətinə dövlət səviyyəsində dəstək olmaq məqsədilə aşkar edilmiş nəticələri və müşahidələri əhatə etməlidir.

14.17 Qiymətləndirmənin nəticəsi hesabatla birlikdə təşkilata təqdim edilir.

14.18 Müfəttiş yoxlamaları nəticəsində uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkilinin cari, uyğun və işlək olmaması uçuşların təhlükəsizliyinin təmin edilməsində nöqsan kimi qiymətləndirilir. Lakin sistemin səmərəli olmaması nöqsan kimi qiymətləndirilmir və müfəttişlər tərəfindən səmərəliliyin təmin edilməsi üçün müvafiq tövsiyələr verilir.

14.19 Uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkilinə dövlət nəzarəti zamanı aşkar edilən nöqsanlar aşağıdakı kimi təsnif edilir:

14.19.1 I dərəcəli nöqsanlar - uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkilinin müəyyən edilmiş tələblərə əhəmiyyətli uyğunsuzluğu;

14.19.2 II dərəcəli nöqsanlar- uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkilinin

müəyyən edilmiş tələblərə uyğunsuzluq.

14.19.3 I dərəcəli nöqsanlar aşkar edildikdə, Agentlik xidmət təminatçıları tərəfindən nöqsanların aradan qaldırılması üzrə tədbirlər həyata keçirilənədək təşkilatın fəaliyyətinə qadağa qoyur.

14.19.4 II dərəcəli nöqsanlar aşkar edildikdə, Agentlik təşkilat tərəfindən nöqsanların aradan qaldırılması üzrə tədbirlərin həyata keçirilməsi üçün 3 (üç) ayadək vaxt təyin edir. Aşkar olunmuş nöqsanların aradan qaldırılması istiqamətində görülmüş işlər üzrə Agentlik tərəfindən təkrar yoxlamalar aparılır. Yoxlama nəticəsində nöqsanların aradan qaldırılması üzrə tədbirlər görülmədiyi aşkarlandıqda, təşkilatın fəaliyyəti məhdudlaşdırılır və ya dayandırılır.

ƏLAVƏ 1 - İSLAHEDİCİ TƏDBİRLƏR PLANININ NÜMUNƏSİ

(audit/yoxlama nömrəsi/tarix/məkan)

əlaqədar

İslahedici Tədbirlər Planı

Xidmət təminatçısının cavabdeh şəxsinin *(imza, möhürü və tarix)*

_____

Dövlət Mülki Aviasiya Agentliyinin cavabdeh şəxsinin *(imza, möhürü və tarix)*

_____

Qəbul olunub ☐	İmtina edilib ☐

Xidmət Təminatçısı *Service Provider*	*Azeraeronaviqasiya*	**Audit/yoxlama tarixi** *Date of audit/inspection*	
Xidmət *Service*	*ATS/AIS/MET/CNS*	**Audit/yoxlama hesabatının tarixi** *Date of audit/inspection report*	
Uyğunsuzluğun Nömrəsi *Number of Finding*	*ANXT/HHI/2023/05-01*	**Ehtimal edilən tətbiq tarixi***(son)* *Estimated Implementation Date (final)*	
Uyğunsuzluqların təsviri *Description of Finding*			
Əsas səbəb *Root Cause*			
Xidmət təminaçısının şərhi *Service Provider's Comments*			

Addım *Step*	**İslahedici tədbirlər** *Corrective Action(s)*	**Tədbirlərə cavabdeh bölmə (cavabdeh şəxs)** *Action Office (responsible person)*	**Ehtimal edilən icra tarixi** *Estimated Implementation Date*
1			
2			
3			
4			
5			